Xalqın qəzeti!

# Xalq qəzeti

№ 284 (30400) 27 dekabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Fransanın Bakıdakı səfirliyinin 2 əməkdaşı “persona-non-grata” elan olunub

## Azərbaycan elektoratı seçkiyə qürurla gedir

### Növbədənkənar prezident seçkilərinin azad və şəffaf keçirilməsi üçün prosedur qaydalarına tam əməl edilir

**Bütövlükdə, 2024-cü ili Azərbaycanda seçkilər ili kimi xarakterizə etmək olar. Növbədənkənar prezident seçkisi, bələdiyyə seçkiləri və yeni parlamenti formalaşdıracaq seçkilər. Prosesə özünəməxsusluq verən, səciyyələndirən ən başlıca amil isə elektoratın bu dəfə məntəqələrə qürur hissi ilə getməyi olacaq. Son otuz ildə ilk dəfədir ki, Azərbaycan seçicisi ərazi bütövlüyü tam təmin edilmiş, Qarabağ problemi tarixin arxivinə göndərilmiş, Xankəndidə üçrəngli bayrağımızın dalğalandığı bir dövlətin vətəndaşı kimi səs verəcək. Seçkilərə qürur hissi, zəfər fəxarəti verən əsas amil də elə budur. Və bütün bunların böyük siyasi strateqin gözəl düşünərək, yüksək səviyyədə həyata keçirdiyi işğaldan və separatizmdən qurtuluş əməliyyatları sayəsində gerçəkləşdiyi birmənalıdır.**

*(ardı 4-cü səhifədə)*



## Prezident İlham Əliyevin Sankt-Peterburqa işgüzar səfəri

### “Pulkovo-1” hava limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 26-da Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlib.**

Sankt-Peterburq şəhərinin “Pulkovo-1” hava limanında dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov və digər rəsmi şəxslər qarşıladılar.

## Prezidentlər İlham Əliyev və Aleksandr Lukaşenkonun görüşü



**Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olub.**

Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı bir daha məmnunluqla qeyd edildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi. Yüksək səviyyəli görüşlərin və təmasların əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Dövlət başçıları əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək gələcək təmaslar və əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi apardılar.

## Fransız “persona-non-qrata”lar, komissar Jyuv və Emmanuel Makron

### Yaxud Fransa diplomatiyası ilə bağlı nekroloq əvəzi

**Dünən Fransanın Azərbaycandakı səfiri Ann Buayon ölkəmizin Xarici İşlər Nazirliyinə çağırılıb. Onun diqqətinə çatdırılıb ki, səfirliyin iki əməkdaşı diplomatik statuslarına uyğun olmayan və “Diplomatik əlaqələr haqqında” 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətlərə yol verib. XİN-dən səfirə buna görə ciddi etiraz bildirilib və həmin şəxslərin Azərbaycan hökuməti tərəfindən “persona-non-grata” (arzuolunmaz şəxs) elan olunduğu vurğulanıb, 48 saat ərzində ölkəmizdən çıxmaları tələb olunub, habelə Parisin ali diplomatik təmsilçisinə dövlət qurumumuzun müvafiq etiraz notası təqdim edilib.**

Göründüyü kimi, məsələ, kifayət qədər, ciddidir və bu ciddilik Azərbaycan XİN-nin açıqlamasından da duyulur. Əlbəttə, diplomatik etika baxımından açıqlamada Fransa səfirliyinin əməkdaşlarının ciddi etiraz və sərt tədbirin görülməsini doğurmuş hərəkətlərinin konkret nədən ibarət olduğu göstərilmir. Amma istər-istəməz, durumun rəsmi Parisin pozuculuq fəaliyyəti kontekstində qiymətləndirilməsinə ehtiyac duyulmaqdadır.

Məlum olduğu kimi, qlobal siyasətdə uğursuzluğa düçar olmuş Fransa hər vasitə ilə itirilmiş mövqelərinin bərpasına girişib. Dünyada qeyri-ciddi imicə malik ölkə Prezidenti Emmanuel Makron mövcud istiqamətdə nə qədər çalışsa da, yekunda məşhur fransız filmi olan “Fantomas”ın komik qəhrəmanı komissar Jyuv kimi gülməli görünür.

Ancaq təkrarsız və bənzərsiz film-trilogioyada yer almış və dünya kinosunun simalarından sayılan məşhur Lui de Fünesin yaratdığı komissar Jyuv obrazı Makrondan daha səmimidir. Baxmayaraq ki, film boyu uğursuzluq zolağından çıxa bilmir. Bu obrazdan ilhamlanaraq siyasət meydanına atıldığı təəssüratı yaradan Fransa Prezidentinin üzləşdiyi vəziyyət isə əsl rüsvayçılıqdır. Söhbət



bir neçə gün əvvəl ölkənin agentura şəbəkəsinin Azərbayanın Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən faş olunmasından gedir.

Bununla bağlı xəbəri “İdentificator.in.ua” saytı yaymışdı. Məlum olmuşdu ki, Fransa “tərəfdaşları” kimi tanınan ölkələrin nümayəndələrinə qarşı kəşfiyyat əməliyyatları aparıb. Üstəlik, geniş əlaqələrdən istifadə edən fransız rezidenturası Cənubi Qafqaz regionunda aktiv fəaliyyət göstərib. Lakin nə qədər ehtiyatlı davransa da, Azərbaycanın xüsusi xidmət orqanları, bu qruplaşmanın Cənubi Qafqaz, Yaxın Şərq, Ukrayna və Moldovadakı fəaliyyəti ilə bağlı sübut və sənədlər əldə edib. Habelə, Azərbaycanın xüsusi xidmət orqanlarının apardığı cinayət işi üzrə Ukrayna, Gürcüstan və Azərbaycanla bağlı kəşfiyyat fəaliyyəti həyata keçirmiş bir sıra şəxslər həbs edilib.

**(ardı 19-cu səhifədə)**

## Parisin uğursuz cəhdlər “seriyası”

Səhifə ⇨ 4



## Qeyri-neft-qaz sektorundan büdcə daxilolmaları artıb

### *Bu il proqnozdan əlavə, 1,1 milyard manata yaxın vergi toplanıb*

**Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli vergi sistemi ötən illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətli inkişaf yolu keçib, qurumun maddi-texniki bazası genişləndirilib, vergi inzibatçılığı texnoloji cəhətdən yenidən qurulub. Nəticədə ölkəmizin iqtisadi inkişafında həlledici rola malik, müasir və beynəlxalq standartlara cavab verən müasir vergi xidməti yeni standartlarla zənginləşib.**

(ardı 17-ci səhifədə)



## Paşinyanın ilk mesajı – İrəvan AİI-ni gözdən salmaq üçün qol çırmayır

### Ermənistanın Rusiyanın hakim rol oynadığı təşkilata sədrliyi hansı perspektivi vəd edir?

**Ermənistanın baş naziri Nikol Paşinyan Ali Avrasiya İqtisadi Şurasının dekabrın 25-də Sankt-Peterburqda keçirilmiş iclasında bildirib ki, AİI-nin yaradılmasına dair saziş qurumun iqtisadi birlik olması ilə bağlı fundamental postulata əsaslanır və onun siyasi, daha çox geosiyasi gündəmi olmamalıdır: “Biz bunu bu cür dərk etməyə davam edirik və bu kontekstdə iqtisadi əməkdaşlığımız çərçivəsində qarşılıqlı fəaliyyəti inkişaf etdiririk. Avrasiya inteqrasiyasını siyasiləşdirmək cəhdlərinin qarşısını almağa çalışırıq”.**



ardı 3-cü səhifədə

# Dövlət başçıları “Yekaterina sarayı”nda



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda “Yekaterina sarayı” ("Екатерининский дворец") ilə tanış oldular.**

XVIII əsr memarlığının şah əsəri sayılan “Yekaterina sarayı”nın inşası 1744-cü ildən 1756-cı illəri əhatə edib. 1918-ci ildə “Yekaterina saray-park ansamblı” muzeyə çevrilib.

İkinci Dünya müharibəsi illərində faşist istilası zamanı bu tarixi abidə dağıdılaraq talan edilib, muzey kolleksiyasının əhəmiyyətli hissəsi itirilib, dağıntılar və talan nəticəsində abidəyə ciddi ziyan dəyib. “Yekaterina sarayı”nın bərpası 1957-ci ildən bəri davam edir.

# “Böyük Peterhof Sarayı” ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda “Böyük Peterhof Sarayı” ("Большой петергофский дворец") ilə tanış oldular.**

# MDB dövlət başçılarının qeyri-rəsmi görüşü



**Dekabrın 26-da Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib.

# Prezident İlham Əliyev MDB dövlət başçılarının naharında

**Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının birgə naharı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Səfər başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri dekabrın 26-da başa çatıb.**

*AZƏRTAC*

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin yanvar ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının sədri** İnam Kərimov | **Xaçmaz** | Xaçmaz, Şabran | **11** |
| 2. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Samux** | Samux, Gəncə, Kəlbəcər | **12** |
| 3. | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Ağcabədi** | Ağcabədi, Ağdam, Laçın | **12** |
| 4. | **Mədəniyyət naziri** Adil Kərimli | **İsmayıllı** | İsmayıllı, Ağsu, Qobustan, Şamaxı | **12** |
| 5. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Şabran** | Şabran, Xaçmaz | **12** |
| 6. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **12** |
| 7. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala, Biləsuvar | **12** |
| 8. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Siyəzən** | Siyəzən, Xızı | **15** |
| 9. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **15** |
| 10. | **Baş prokuror** Kamran Əliyev | **Beyləqan** | Beyləqan, Ağcabədi, Füzuli, İmişli, Laçın, Xocavənd | **16** |
| 11. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Gədəbəy** | Gədəbəy, Şəmkir, Tovuz, Qazax, Ağstafa, Daşkəsən | **18** |
| 12. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **18** |
| 13. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Şəmkir** | Şəmkir, Gədəbəy | **18** |
| 14. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl | **23** |
| 15 | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Neftçala** | Neftçala, Salyan, Biləsuvar | **25** |
| 16 | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Göyçay** | Göyçay, Mingəçevir, Yevlax, Ağdaş, Ucar, Kürdəmir, Zərdab | **26** |
| 17 | **Energetika naziri** Pərviz Şahbazov | **Astara** | Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı | **26** |
| 18 | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Xaçmaz** | Xaçmaz, Quba | **26** |
| 19 | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Hacıqabul** | Hacıqabul, Şirvan | **26** |
| 20. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Neftçala** | Neftçala, Salyan | **26** |
| 21 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Siyəzən** | Siyəzən, Xızı | **26** |
| 22. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Şəmkir** | Şəmkir, Gədəbəy | **26** |
| 23. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala | **26** |
| 24. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **İmişli** | İmişli, Saatlı, Sabirabad | **26** |
| 25 | **“Azəristiliktəchizat” ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Goranboy** | Goranboy, Naftalan, Xocalı | **26** |
| 26 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Göyçay** | Göyçay, Ağdaş, Kürdəmir, Ucar, Zərdab | **30** |
| 27 | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Saatlı** | Saatlı, Sabirabad | **30** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Baş Prokurorluğun kollegiya iclası



**Dekabrın 26-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülən işlər, qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş kollegiya iclası keçirilib.**

Baş prokuror Kamran Əliyev bu ilin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə təsadüf etdiyindən Ulu öndərin irsini öyrənmək, onu təbliğ etmək və bu irsdən faydalanmaq, onu gələcək nəsillərə çatdırmağın dövlətimizin qarşısında duran vacib məsələlərdən biri olduğunu, təkcə “Heydər Əliyev İli” çərçivəsində deyil, bütün dövrlərdə bunun əhəmiyyətini qeyd edib.

Kollegiya iclasında 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı vətəndaşların hüquqlarının tam şəkildə qorunması, seçki prosesi zamanı hüquqpozmalara yol verildiyi halda qanunla nəzərdə tutulmuş tədbirlərin görüləcəyi xüsusilə vurğulanıb.

Daha sonra ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsində Azərbaycan prokurorluğu tərəfindən digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlərin görüldüyü bildirilib.

Xüsusilə əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə cinayətlərinin daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılmasının təmin olunduğu qeyd edilib.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafı istiqamətində prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

*XQ*

# Azərbaycan elektoratı seçkiyə qürurla gedir

(əvvəli 1-ci səhifədə)

2023-cü ilin Azərbaycan tarixinə qızıl hərflərlə yazılacağı aksiomdur. 2024-cü il fevralın 7-nə növbədənkənar prezident seçkisinin təyin olunması isə ilin son və ən xoş sürprizi kimi yadda qalacaq.

* * *

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün addımların ardıcıl, sistemli




və keyfiyyətlə atıldığını bildirib. Bu tezislər MSK sədrinin ekspert qrupu üzvlərinə müraciətində öz əksini tapıb. Bununla bağlı mediaya açıqlama verən M.Pənahov 7 fevral seçkisinin ilk dəfə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlar da daxil olmaqla, respublikamızın hər bir bölgəsində keçiriləcəyini diqqətə çatdırıb. O, ən yeni tariximizin müstəsna əhəmiyyətli ictimai-siyasi hadisəsi kimi dəyərləndirdiyi bu tarixi tədbirin ölkə Konstitusiyasına və Seçki Məcəlləsinin tələblərinə uyğun, azad və şəffaf keçirilməsi üçün MSK tərəfindən hazırlanıb təsdiq edilmiş təqvim planı əsasında lazımi tədbirlərin görüldüyünü, mövcud istiqamətdə bütün zəruri addımların ardıcıl və keyfiyyətlə atıldığını media nümayəndələrinin nəzərinə çatdırıb.

Daha sonra MSK sədri vurğulayıb ki, geniş maarifləndirmə və məlumatlandırma proqramı üzrə nəzərdə tutulan layihələr elektorat, yerli seçki komissiyalarının üzvləri və müxtəlif statuslu digər seçki subyektləri kimi, ekspert qrupu üzvlərini də əhatə etməklə müvəffəqiyyətlə həyata keçirilir.

Oxucuların nəzərinə çatdıraq ki, növbədənkənar prezident seçkilərində namizədliyi təsdiqlənən şəxslər özlərinin fevral seçki platformalarının detallarını hələlik açıqlamayıblar.

MSK Pezidentliyə namizədliyinin irəli sürülməsi təsdiqlənən daha 8 şəxsin səlahiyyətli nümayəndəsini qeydə alıb. Bu barədə komissiyanın dünən keçirilmiş iclasında MSK katibi Arifə Muxtarova məlumat verib. Onun sözlərinə görə, müzakirələrdən sonra prezidentliyə namizədliyi özü tərəfindən irəli sürülən Sərvan Kərimov, Mətləb Mütəllimli, Abutalıb Səmədov, Fikrət Yusifov, Yusif Bağırzadə, Arzuman Abdulkərimov, Yunus Oğuz və Qulamhüseyn Əlibəylinin səlahiyyətli nümayəndələri qeydə alınıb.



Beləliklə, bugünədək prezident seçkilərində namizədliyi təsdiqlənən şəxslərin sayı 15 nəfərdir. Onların komandaları da imzatoplama kampaniyasına start verib. Mövcud qanunvericiliyə görə, prezidentliyə namizədlər seçkilərə qatılmaq üçün minimum 40 min imza toplamalıdır. Prezidentliyə namizədlər yanvarın 8-ə qədər müvafiq sənədləri təqdim etməli, həmin imzalar MSK-da təsdiqlənməlidir. Yeri gəlmişkən, bundan əvvəlki seçkilərdə bəzən namizədlərə imza yığmaq üçün hakimiyyətin inzibati resurslarından istifadə etdiyi, müxalif namizədlərə isə maneələrin yaradıldığı ilə bağlı qərəzli iddialar səslənmişdi. 7 fevral seçkisinin tam şəffaf və namizədlərə həm imzatoplama mərhələsində, həm də 22 gün davam edəcək təbliğat kampaniyasında bərabər şəraitin yaradılacağı heç kəsdə şübhə doğurmayacaq.

* * *

**Yeni Azərbaycan Partiyasının Nəzarət-Təftiş Komissiyasının üzvü Elman Nəsirov** Prezident İlham Əliyevin



imzatoplama kampaniyası ilə bağlı deyib ki, cənab Prezidentin cəmiyyətdə reytinqi pik nöqtəsindədir və müvafiq imzaların toplanması elə bir çətinlik yaradan məsələ deyil.

YAP nümayəndəsinin sözlərinə görə, əvvəlki seçkilərdə Prezident İlham Əliyevin platformasında aparıcı tezis ölkənin ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı məsələlər idi: “Artıq ölkəmizin bütün ərazisində suverenliyimiz tam bərpa olunub. Bu nöqteyi-nəzərdən Azərbaycan Prezidenti artıq ilk dəfədir ki, respublikanın bütün suveren ərazisində keçiriləcək seçkilərə qatılır. İndiyə qədər seçkilər ölkənin 80 faiz ərazisində olub. Amma indi 100 faizində keçiriləcək. Bu reallığı yaradan ölkənin Prezidenti İlham Əliyevdir”.

**Prezidentliyə namizəd, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa** zəruri imzaların toplanması ilə bağlı suala aydınlıq gətirərək bildirib ki, bu məsələni partiyanın rayon təşkilatları həyata keçirir: “Onlar bu işi uğurla davam etdirirlər. Qanunvericiliyə görə, 60 dairədən seçici imzası yığılmalıdır və biz bunu regionların spesifikanı nəzərə alaraq edirik”.

BQP sədri onu da bildirib ki, hələlik, onlara imzatoplama kampaniyası çərçivəsində



dövlət qurumlarının prosesə hər hansı maneələri ilə bağlı şikayət daxil olmayıb: “Qış fəsli ilə bağlı müəyyən texniki çətinliklər ola bilər, amma digər hər hansı maneçilik yoxdur. Yaxın günlərdə biz imzatoplama kampaniyasını bitirib, məlumatların qanunvericiliyə uyğunluğunu yoxlayıb, imza vərəqələrini Mərkəzi Seçki Komissiyasına təqdim edəcəyik”.

F.Mustafanın fikrincə, budəfəki seçkilər spesifik seçkilərdir: “Çünki bu, ilk seçkilərdir ki, favorit Qarabağın işğaldan azad olunmasından sonra indiki iqtidarın nümayəndəsidir. Burada söhbət təkcə iqtidarın gücü, maddi resurslardan getmir. Həm də cəmiyyətdə buna mənəvi bir yanaşma var. İnsanların Qarabağı azad etmiş bir iqtidara münasibəti, əlbəttə ki, müsbətdir”.

Əldə etdiyimiz məlumata əsasən, prezidentliyə namizədlərin seçki qərargahlarından MSK-ya hər hansı qanun pozuntusu ilə bağlı şikayət daxil olmayıb.

Onu da qeyd edək ki, Azərbaycanda son prezident seçkisi 2018-ci il aprelin 11-də baş tutub. Cənab Prezident İlham Əliyev 20 il əvvəl isə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası uçün ilk dəfə Prezident kimi and içmişdi. O, həmin andı Azərbaycan xalqı qarşısında həm də ata vəsiyyəti kimi yerinə yetirdi.

Azərbaycanda növbədənkənar prezident seçkilərinə 40 gün qalmış ortada hamının bildiyi danılmaz həqiqət var. İstər prezidentliyə namizədlərin özlərinin, istər xarici müşahidəçilərin, istəsə də yerli müxalifətin qəbul etdiyi reallıq ondan ibarətdir ki, Prezident İlham Əliyevin reytinqi respublikaya rəhbərlik etdiyi 20 il ərzində hər zaman yüksək olub. Xüsusilə, 44 günlük müharibəyə Zəfər möhürünü vurduğu son üç ildə, ələlxüsus da cari ilin sentyabrında Qarabağda həyata keçirilən antiterror əməliyyatından sonra bu reytinq özünün apogeyinə çatıb. Başqa cür ifadə etsək, hazırda İlham Əliyev populyarlığının zirvəsindədir. 2024-cü il 7 fevral seçkisinin nəticəsi bu aksiomun təkrar təsdiqi olacağına heç kəs şübhə eləmir. Əslində, əjdaha ilinin ən yaddaqalan hadisəsi məhz bu olacaq.

**Ekspert rəyi**



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

**Bu gün bizim qarşımızda çox ciddi missiya və hədəflər durur. Biz dövlətçiliyimizi, müstəqilliyimizi və qələbəmizi daha da möhkəmləndirməli, Qarabağda həyata keçirilən böyük abadlıq və quruculuq işlərini sürətləndirməliyik. Heç şübhəsiz ki, Azərbaycan bu missiyanın da öhdəsindən, hər zaman olduğu kimi, uğurla və ləyaqətlə gələcək. 2020-ci ildə Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə nəinki bölgədə, bütövlükdə dünyamızda yeni reallıq yaratdı. Bütün bunlar nəzərə alınaraq, ölkəmizdə yeni prezident seçkilərinin keçirilməsi barədə qərarın qəbul edilməsi dövlət başçısı İlham Əliyevin növbəti müdrikliyinin və uzaqgörənliyinin parlaq təzahürüdür.**

**Prezident İlham Əliyevin rəhbərliyi ilə bizi irəlidə hələ daha böyük qələbələr gözləyir. Azərbaycan xalqı hər zaman bütün sınaqlardan ölkə rəhbərliyi ətrafında sıx birləşərək çıxıb. Bu dəfə də xalqımız böyük müdriklik və uzaqgörənlik nümayiş etdirərək, növbəti dəfə öz liderlərinə sadiqliyini göstərəcək.**

***İmran BƏDİRXANLI***
***XQ***

# Parisin uğursuz cəhdlər “seriyası”

## Fransanın BMT TŞ-də Azərbaycana qarşı təxribatçı fəaliyyəti açıq düşmənçilikdir

**Fransa Azərbaycana münasibətdə yürütdüyü məkrli siyasəti davam etdirir. Rəsmi Paris özünün xəbis niyyətlərini gerçəkləşdirmək üçün ən müxtəlif platformalardan yararlanır. Bunlardan biri də BMT Təhlükəsizlik Şurasıdır.**

Məlumdur ki, ən böyük universal təşkilat olan BMT İkinci Dünya müharibəsindən sonra beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmləndirmək, habelə dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək üçün yaradılıb. BMT unikal legitimliyə malik universal forum, beynəlxalq kollektiv təhlükəsizlik sisteminin aparıcı strukturu və müasir çoxtərəfli diplomatiyanın əsas elementi hesab olunur. Təhlükəsizlik Şurası isə BMT-nin daimi fəaliyyət göstərən ali orqanıdır. BMT Nizamnaməsinin 24-cü maddəsinə uyğun olaraq, Təhlükəsizlik Şurası beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün BMT-nin əsas məsuliyyət daşıyan qurumudur. Şura BMT-nin altı əsas orqanından biridir. Onun 15 üzvündən beşi daimi, 10-u isə iki il müddətinə seçilən qeyri-daimi üzvdür. Fransa da Çin, Rusiya, Böyük Britaniya və ABŞ-la yanaşı TŞ-nin daimi üzvüdür. Digər daimi üzvlər kimi Fransanın da qurumda veto hüququ var.

Fransa nüvə silahına malik dövlətdir. 1949-cu ildə NATO-nu təsis edən 12 ölkədən, 1952-ci ildə Avropa Kömür və Polad Birliyinin (hazırkı Avropa İttifaqı) əsasını qoyan 6 dövlətdən biridir. Xüsusilə, BMT TŞ-nin daimi üzvü olması Fransanın beynəlxalq təhlükəsizliyin və əmin-amanlığın qorunmasında məsuliyyət daşımasını şərtləndirir. Parisin Azərbaycanla bağlı son illərdə, xüsusilə 44 günlük Vətən müharibəsi günlərində və ondan sonra tutduğu mövqe isə onun beynəlxalq münasibətlər sistemindəki yeri və rolu ilə heç cür uzlaşmır. Bundan əlavə, Fransa uzun illər ATƏT-in Minsk qrupunun həmsədri olub. Fransanın bu gün atdığı addımlar onun necə həmsədr olmasını da əyani təcəssüm etdirir. Halbuki 1993-cü ilin aprel, iyul, oktyabr və noyabr aylarında elə həmin TŞ-də erməni qoşunlarının işğal etdikləri Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edən 4 qətnamə qəbul edilmişdi. Fransa sonrakı illərdəki fəaliyyəti ilə söz və əməlinin üst-üstə düşmədiyni sübut etdi.

Fransa hazırda TŞ-dəki mövqeyindən də Azərbaycana qarşı istifadə etməyə çalışır. Paris bu avantüraya ilk dəfə Vətən müharibəsi dövründə əl atmışdı. Belə ki, işğalçı Ermənistan ordusunun müzəffər ordumuzun qarşısından qaçdığını, yaşayış məskənlərimizin ardıcıl şəkildə qurtulduğunu görən Paris TŞ platformasından ölkəmizə qarşı istifadə etməyə, təzyiq göstərməyə çalışdı. 2020-ci il oktyabrın 19-da TŞ-nin Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar qapalı iclası keçirildi. İclasdan sonra Fransanın təşəbbüsü ilə həmin dövrdə mövcud olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri tərəfindən TŞ prezidentinin bəyanatının layihəsi hazırlandı və razılaşdırılması üçün üzv ölkələr arasında yayıldı. Layihədə TŞ-nin yuxarıda qeyd olunan tarixdə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edilməmişdi. TŞ-də təmsil olunan Qoşulmama Hərəkatına üzv olan 7 dövlət – İndoneziya, Tunis, Niger, Dominikan Respublikası, Vyetnam, Cənubi Afrika Respublikası və Sent Vinsent və Qrenadin layihəyə TŞ məlum qətnamələrinə istinadın daxil edilməsi təklifini irəli sürdülər. Lakin həmsədr ölkələr bunun qəbuledilməz olduğunu bildirdilər. Eyni zamanda həmsədr ölkələr tərəfindən bəyanatın iki dəfə sükut proseduru vasitəsilə qəbuluna cəhd göstərildi. Amma Qoşulmama Hərəkatı ölkələri prinsipial mövqe ortaya qoyaraq, sənəddə TŞ qətnamələrinə istinad məsələsində təkid etdilər. Bundan sonra Fransa başda olmaqla, digər həmmüəlliflər rüsvayçılıqla bəyanat layihəsini geri çəkdilər.

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru**

– Fransa dünyada kifayət qədər önəmli dövlətdir. Əlbəttə, supergüclər sırasında deyil. Lakin ikinci cərgədədir. Keçmiş imperiyadır, yəni onun müstəmləkələri, nüvə silahı var, NATO-nun və Avropa İttifaqının qurucu ölkələrindəndir, BMT TŞ-də daimi üzvdür, veto hüququna malikdir. Yəni bu ölkənin böyük resursları mövcuddur. Lakin Fransa son dövrlərdə beynəlxalq siyasətdə ciddi problemlərlə üzləşib. Çünki digər ölkələr onun ənənəvi maraq dairələrinə basqı edir və bu basqılar uğurlu olur.

Fransa bu gün Azərbaycana qarşı əlində olan bütün arsenalı işə salıb. Üzv olduğu, rəhbərliyində təmsil olunduğu, qurduğu bütün beynəlxalq platformalarda Azərbaycana qarşı işlər aparır. Hətta, iş o yerə çatıb ki, Ermənistandan daha radikal mövqe sərgiləyir. Lakin Fransanın zəifləməsi o dərəcədədir ki, hətta, Azərbaycanın üzvü olmadığı təşkilatlarda belə Paris öz istəklərinə nail ola bilmir. Məsələn, Beynəlxalq Frankofoniya Təşkilatı çərçivəsində onun təklif etdiyi bəyanatlar və ya digər sənədlər böyük dəyişikliklərdən sonra qəbul edilir. BMT Təhlükəsizlik Şurasında iki dəfə məhz Fransanın dəstəklədiyi müzakirələr həyata keçirildi ki, orada da Azərbaycana qarşı hər hansı sənədin qəbulu mümkün olmadı. Bu, bir tərəfdən müasir beynəlxalq münasibətlərin vəziyyətini göstərir. Yəni ənənəvi olaraq böyük, güclü, varlı dövlətlər belə formalaşan yeni güclər qarşısında aciz qalırlar. Fransa–Azərbaycan münasibətlərindəki mövcud vəziyyət də bunun əyani göstəricisidir.



2020-ci il oktyabrın 26-da xalqa müraciət edən Prezident İlham Əliyev bu barədə demişdi: “Baxın, bu yaxınlarda nələr baş verir? Minsk qrupunun həmsədr ölkələri BMT Təhlükəsizlik Şurasının iclasını çağırırlar. Bir dəfə artıq bunu etmişdilər. Orada qəbul edilmiş sənəd görünür ki, onları qane etmədi. Bu dəfə də bir neçə gün bundan əvvəl biz yeni sənədin ortaya çıxmasını gördük, xəbər tutduq. Dərhal biz hərəkətə keçdik və bu sənədin qəbul edilməsinə imkan vermədik. Baxmayaraq ki, üç həmsədr ölkə BMT Təhlükəsizlik Şurasına üzv olan digər ölkələrə böyük təzyiqlər edirdi.

Nə idi bunun məqsədi? Məqsədi çox aydındır, 1993-cü ildə erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması barədə qəbul edilmiş qətnamələr kölgədə qalsın, onlar arxada qalsın, onlar ya qüvvədən düşsün, ya da ki, öz əhəmiyyətini itirsin. Bu idi məqsəd. Bu, nə dərəcədə ədalətlidir? Biz yenə də işğalçıya dəstək göstərilməsi cəhdini gördük. Amma nə oldu nəticədə? Keçmədi. Necə keçmədi? Qoşulmama Hərəkatına üzv ölkələr kişi kimi buna imkan vermədilər, bizə dəstək göstərdilər, sağ olsunlar. Baxmayaraq ki, onlara təzyiq göstərildi, bəlkə də, hədələr oldu. Amma bizim arxamızda kişi kimi durdular, necə ki, biz onların arxasında dururuq. Bu, onu göstərir ki, keçməyəcək. Mənim əziz qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti dəfələrlə deyib ki, dünya beşdən böyükdür. Tam haqlıdır. Bax, bu səsvermə onu göstərdi. Birləşdilər, yenə də Ermənistanın maraqlarına cavab verən sənədi ortalığa atdılar, amma keçmədi. Çünki ədalət var. Nə qədər bu ədaləti pozsalar da, nə qədər bu haqqı yerə vursalar da, yenə də ədalət var. Ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə biz yolumuzu davam edəcəyik”.

Dövlətimizin başçısı müharibənin başa çatmasından sonra – 2020-ci il noyabrın 23-də işğaldan azad edilmiş Ağdam şəhərində olarkən yenidən həmin məsələyə münasibət bildirdi: “Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurası tərəfindən yeni qətnamənin qəbul edilməsi cəhdləri də baş vermişdir. O qətnamə qəbul edilsəydi, əlbəttə ki, bizi dayandıra bilməzdi, ancaq lazım olmayan bir mənzərə yarada bilərdi. Məhz Qoşulmama Hərəkatına üzv ölkələr o qətnamənin qəbul olunmasına imkan vermədilər, bizi dəstəklədilər. Mən də onlara təşəkkürümü bildirdim və demişdim ki, onlar bizim arxamızda kişi kimi durdular. Baxmayaraq ki, böyük dövlətlər onlara böyük təzyiqlər göstərirdi. Qoşulmama Hərəkatının bir çox üzvləri Azərbaycanı həm müstəqil, həm güclü, həm də onları müdafiə etməyə hazır olan ölkə kimi tanıyır. Biz pandemiya dövründə 30-dan çox ölkəyə humanitar maliyyə yardımı göstərmişik, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Qoşulmama Hərəkatına xüsusi bir yardım göstərmişik. Görülmüş bütün bu işlər səmərəsini verdi. Biz bizim üçün əsas məsələ olan Qarabağ məsələsində lazımi beynəlxalq dəstəyi ala bildik”.

Fransanın təşəbbüslərinin nəticə verməməsi onu yeni təşəbbüslərdən çəkindirmədi, əksinə, sanki daha da azğınlaşdırdı. Bir il öncə – 2022-ci ilin dekabrın 20-21-də Fransa və Ermənistan Laçın yolundakı vəziyyətlə bağlı TŞ-nin iclasını çağırmışdılar. Hər iki ölkə Azərbaycana qarşı növbəti ədalətsizliyi qlobal platformada legitimləşdirməyə cəhd etsə də, növbəti dəfə rüsvay oldular. Diqqətçəkən həm də o idi ki, Fransa BMT TŞ-nin daimi üzvü olmaqla yanaşı, həmin dövrdə qurumun sədri idi. Rəsmi Paris on gün ərzində bütün resurslarını işə salsa da, bir bəyanatı qəbul etdirə bilmədi. Beləliklə, aydın olur ki, Fransa rəhbərliyinin son illərdə Azərbaycana qarşı BMT TŞ-da qətnamə qəbuluna cəhdlərinin baş tutmaması onun xarici siyasətdə də fiaskoya uğramasının göstəricisidir. Parisdə bilməlidirlər ki, ölkəmizin bədxahları üzərində diplomatik-siyasi qələbələri bundan sonra da davam edəcək.

**Ekspert rəyi**



**Aydın MİRZƏZADƏ,**
**Milli Məclisin deputatı, politoloq**

– Fransanın xarici siyasətində anti-Azərbaycan mövqe çox açıq şəkildə özünü göstərir. Bu, təkcə Azərbaycanda deyil, Fransanın müttəfiqləri arasında da təəccüb doğurur. Fransa kimi böyük ölkənin cəmi 30 ildir müstəqillik qazanmış kiçik bir dövlətə qarşı qərəzli siyasətinin kökündə onun erməni sevgisi durur. Fransa hazırda ermənilərdən daha çox erməni olmağa çalışır. Bu, bir tərəfdən ölkə rəhbərliyinin daxildəki erməni diasporundan asılılığından, digər tərəfdən isə uğursuz daxili və xarici siyasətini kompensasiya etmək istəyindən irəli gəlir. Fransanın indiki iqtidarı hansısa sahədə güclü olduğunu göstərməyə çalışır. Amma bu cəhdin özü də uğursuzdur. Fransa rəhbərliyinin bütün cəhdlərinə baxmayaraq, beynəlxalq təşkilatlarda anti-Azərbaycan qərarları qəbul etmək, dünyanın Azərbaycana marağını azaltmaq mümkün olmur. Azərbaycan bu gün dünya siyasətində fəal və tanınan bir ölkədir. COP29-un gələn il ölkəmizdə keçirilməsinin özü Azərbaycanın artan nüfuzundan xəbər verir.

Eyni zamanda Parisin bir aktor kimi Cənubi Qafqazda iştirak cəhdlərinə baxmayaraq, bölgənin üç ölkəsi Fransasız da öz münasibətlərini qura bilirlər. Azərbaycanın artıq Ermənistanla vasitəçilərsiz kontakta girməsi, bir sıra məsələlərdə ortaq məxrəcə gəlinməsi və sülh müqaviləsi ilə bağlı edilən cəhdlər göstərir ki, müqavilənin bağlanması heç də uzaqda deyil. Azərbaycanla Ermənistan arasında normal qonşuluq münasibətləri qurulduqdan sonra Fransanın bütün cəhdləri tam iflasa uğrayacaq. Nə zamansa Fransada hakimiyyətə gələcək iqtidarlar ölkənin bugünkü riyakar, qərəzli siyasətinə görə yəqin ki, Azərbaycandan üzr istəməli olacaqlar.

***Səxavət HƏMİD***
***XQ***

# Ulu öndərin hüquqi-demokratik dövlət quruculuğu

**Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərlik etdiyi illərdə həyata keçirdiyi tarixi tədbirlər sonradan milli dövlətçilik və quruculuq ideyalarının əsasına çevrilmiş, xalqın vahid ideya ətrafında birləşməsinə təkan vermişdir. Ulu öndər ölkəmizi zamanın sərt sınaqlarından çıxarıb, müstəqilliyimizi bərqərar etməklə tükənməz bir dövlətçilik irsi yaratmışdır.**



Azərbaycanın hazırkı siyasi və iqtisadi müstəqilliyi, dünyaya açılışı məhz ötən əsrin 70-ci illərində təməli qoyulmuş möhkəm dayağa əsaslanır. Xalqımızın müstəqilliyə gedən yolu, milli oyanışı hələ sovetlər dönəmində Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi və fədakar əməyi sayəsində başlamışdır. Məhz həmin dövrdə respublikamızda hərtərəfli quruculuq işləri aparılmış, milli ruh yüksəlmişdir.

Sonrakı dövrlərdə Sovet İttifaqı kimi hegemon dövlətin rəhbərliyində təmsil olunmaqla əhəmiyyətli dərəcədə strateji sahələri idarə edən Heydər Əliyev öz siyasi iradəsi və güclü nüfuzu ilə bütün türk dünyasının sevimlisinə və Azərbaycanın ümid yerinə çevrilmiş, doğma xalqına möhtəşəm xidmətlər bəxş etmişdir.

Bütün bunlar Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanda belə dəyərləndirilmişdir: "Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır".

Dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin siyasətdən kənarlaşdırıldığı illərdə xalqımız yenicə əldə etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldığını dərk edərək bu fenomenal şəxsiyyətə – Ulu öndərə müraciət etmişdir. Dövlətimizin müstəqilliyi və suverinliyi uğrunda gedən ağır mübarizənin uğuru da Ulu öndərin fədakar siyasi fəaliyyəti ilə bağlı oldu. Çox ağır vəziyyətdə olan ölkəsinin, xalqının xilası məqsədi ilə 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın müstəqilliyinin dayanıqlılığını və dönməzliyini təmin etdi, xalq – dövlət birliyini, ictimai-siyasi sabitliyi və iqtisadi dirçəlişi təmin etməklə, demokratik hüquqi dövlət quruculuğunu prioriteti kimi müəyyənləşdirdi.

İngiltərənin keçmiş baş naziri Toni Blairin də dediyi kimi: "Heydər Əliyev Azərbaycanın Ulu öndəri idi. O, böhran dövründə ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyub getdiyi irslə fəxr edə bilər". Məşhur fransız mütəfəkkiri Volterin dediyi kimi, belə şəxsiyyətlər mürəkkəb siyasi şəraitdə xalqın taleyində misilsiz rol oynayırlar. Bu, amerikalılar üçün Corc Vaşinqton, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün Heydər Əliyevdir.

Mənalı və əvəzsiz ömrünü əziz və doğma xalqının yolunda fəda edərək adını müasir Azərbaycan tarixinə qızıl hərflərlə əbədi həkk etdirmiş Ümummilli lider müstəqilliyimizin banisi, xalqımızın xilaskarı, milli dövlət quruculuğunun memarı və demokratik hüquq siyasətinin yaradıcısı olaraq qədirbilən xalqımız tərəfindən daim sevilir, yad edilir, misilsiz xidmətləri dərin minnətdarlıqla anılır. Tarixdə çox nadir siyasi lider tapılar ki, ölkənin hərtərəfli tərəqqisi onun adı ilə bağlı olsun. Ulu öndər Heydər Əliyev talenin Azərbaycan xalqına bəxş etdiyi nadir tarixi şəxsiyyətdir.

Ümummilli lider Heydər Əliyevin çoxillik və çoxcəhətli fəaliyyəti Azərbaycan xalqının azadlıq, müstəqillik xəyallarının gerçəkləşməsinə yönələn real hüquqi, siyasi və iqtisadi əsasların yaradılmasını, qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsini, insanların konstitusion hüquqlarına sahib çıxmasını, milli-mənəvi dirçəlişə və yüksəlişə nail olmasını əhatə edir.

Dahi strateq vahid planlaşdırma və təsiredici prinsiplərin hakim olduğu iqtisadi formasiyadan azad və hüquqi bazar iqtisadiyyatına optimal keçid modelini müdrik siyasətilə önə çəkmiş, bu proqramın mərhələli qaydada həyata keçirilməsinə məharətlə çalışmışdır. Məhz bunun bariz nümunəsidir ki, Ulu öndərin qayıdışı ilə müstəqilliyimizin itirilməsi təhlükəsi aradan qalxdı. Azərbaycanın gələcək təkamülünü səciyələndirən hərtərəfli imkan yaradılaraq demokratik hüquqi sivil dövlət quruculuğuna başlanıldı. Ardından atəşkəsə nail olunaraq torpaqlarımızı düşmən işğalından azad etməyə qadir olan ordu quruculuğunun əsası qoyuldu.

Görkəmli dövlət xadimi Heydər Əliyev dəfələrlə bildirmişdir ki, dövlətimiz demokratik inkişaf yolunun siyasi-iqtisadi bünövrəsinə əsaslanan tərəqqi modelini özünün əvəzsiz təkamül strategiyası hesab edir. Bununla yanaşı, Ulu öndər onun rəhbərliyi ilə tətbiq olunan istənilən demokratik yeniliyin xalqın milli xüsusiyyətləri, baxışları, ictimai şüur səviyyəsi ilə səsləşməsini əhəmiyyətli hesab edirdi: "Demokratiya daim inkişafda olan bir prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə inqilabi yolla yox, təkamül yolu ilə olmalıdır. Çünki hər bir şeyə tezliklə nail olmaq çətindir".

Yeri gəlmişkən, bir məqama da xüsusi nəzər yetirmək lazımdır. Bu, özündə ali dəyər və normaları ehtiva edən hüquqi və siyasi mədəniyyətin əsasının qoyulmasıdır. Ümumiyyətlə, yüksək hüquq və siyasi mədəniyyətin formalaşması və inkişafı üçün lider fenomeni, amili olduqca önəmlidir. Azərbaycanda hüquqi və siyasi mədəniyyətin təşəkkülü Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrün ictimai-siyasi mənzərəsi onu deməyə əsas verir ki, Ulu öndər özünün yüksək səviyyəli siyasi fəaliyyəti və davranışı ilə ümummilli siyasi mədəniyyətin inkişafını stimullaşdırdı.

"Millət dövlət üçün yox, dövlət millət üçün olmalıdır" deyən Ümummilli lider siyasi həyatda yüksək davranış normaları və prinsipləri formalaşdırmaqla Azərbaycan cəmiyyətini müasir siyasi mədəniyyətə, ədalətli və şəffaf məhkəməyə malik olan inkişaf etmiş cəmiyyətlər sırasına daxil etdi. Bununla yanaşı, ölkəmiz beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında layiqli yer tutdu.

Özünün idarəçi fəaliyyətini Azərbaycanın hərtərəfli tərəqqisinə həsr edən Ulu öndər, eyni zamanda ölkəsinin hüquqi və siyasi bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl addımlar atdı. Məhkəmə sistemində islahatlarının aparılması, Konstitusiya Məhkəməsinin və bununla bağlı digər mühüm hüquqi təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında əhəmiyyətli rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət inşa olundu, vətəndaş cəmiyyətinin sürətli bərqərar edilməsi istiqamətində mühüm addımlar atıldı.

Bundan başqa, hüquqi nihilizmin aradan qaldırılması, siyasi-hüquqi islahatların həyata keçirilməsi kimi strateji tədbirlər ölkədə demokratik hüquq və azadlıqların daha da möhkəmlənməsini şərtləndirmiş oldu. Eyni zamanda Ombudsman təsisatının yaradılması, əvvəllər mövcud olan ölüm hökmünün ləğv edilməsi kimi çox vacib islahat xarakterli işlər xüsusi vurğulanmalıdır.

Ulu öndərin 1994-cü ilin avqust ayında imzaladığı cinayətkarlıqla mübarizəyə dair fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı. "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" qanun qəbul edilməklə 1995-ci ildə mühüm addımlardan olan müasir suverenlik tariximizin ilk demokratik parlamenti formalaşdırıldı.

Tükənməz quruculuq məharəti olan dahi öndər Heydər Əliyev totalitar rejimdən azad olan Azərbaycan cəmiyyətində hüquqi-demokratik dövlətin, yeni hüquq sisteminin yaradılması işinə milli konstitusiyanın qəbulundan başladı. Ümummilli lider Konstitusiya layihəsini hazırlayan Komissiyanın referendumqabağı iclasında deyirdi: "Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq".

Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilən Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesinə böyük vüsət vermişdir. Belə ki, yeni konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqlarının təmin edilməsi, ölkəmizin inkişaf etmiş ölkələr sırasına qoşulması məqsədi ilə Avropa Şurasına inteqrasiyasını sürətləndirmək üçün Ulu öndər tərəfindən çoxsaylı hüquqi aktlar imzalanmış, o cümlədən hüquqi-demokratik quruculuğun inkişafı üçün 1996-cı ildə "Azərbaycan Respublikası Prezidentinin yanında hüquqi islahat komissiyasının yaradılması haqqında" sərəncam imzalanmışdır.

Konstitusiya ali hüquqi qüvvəsi ilə yanaşı, Azərbaycanda aparılacaq hüquq islahatlarının başlıca ideya sənədi olaraq, demokratik, hüquqi dövlət quruculuğuna, ictimai-siyasi, iqtisadi və mədəni həyatın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Ulu öndər Heydər Əliyev hesab edirdi ki, siyasi idarəçilik sisteminin mərkəzində vətəndaş, onun hüquq və azadlıqları, demokratik-hüquqi dövlət idealları durmalı idi.

Konstitusiyamıza uyğun yeni hüquq sistemi formalaşdırmaq üçün Ulu öndər qabaqcıl beynəlxalq təcrübəni, demokratik prinsipləri və Azərbaycan xalqının tarixi ənənələrini rəhbər tutmaqla islahatlara başladı. Doğrudur, demokratik hüquqi quruluşun əzəl bünövrəsi olan müstəqil və ədalətli məhkəmə hakimiyyəti formalaşmadan mükəmməl və dayanıqlı hüquqi sistem qurmaq mümkün olmazdı. Bununla əlaqədar dahi öndərin təşəbbüsü ilə 1997-ci ildə zəngin demokratik ənənələri olan ölkələrin təcrübəsinə əsaslanan "Məhkəmələr və hakimlər haqqında" Qanun qəbul edildi. Məhkəmə icraatının fərqli müasir epoxasının bərqərar edilməsinə təkan verildi.

Bu qəbildən olan islahatlar çərçivəsində ilk dəfə olaraq ölkəmizdə ədalət mühakiməsi sistemində vacib institut olan apellyasiya instansiyası məhkəmələri yaradıldı. İslahatların gedişində Ali Məhkəmənin də funksiya və səlahiyyətlərinə yenidən baxıldı və o, ümumi və ixtisaslaşmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə sırf kassasiya instansiyası məhkəməsinə çevrildi. Azərbaycan xalqının hər bir şəxsinin hüquq və azadlıqlarının məhkəmədə ədalətli müdafiəsinə təminat verildi.

İnsan haqlarını məhdudlaşdıran mühüm qərarların qəbulu məhkəmələrin müstəsna səlahiyyətinə aid edildi. Məhkəmələrin üzərində bütün növ nəzarət sistemi ləğv olundu və onun əvəzinə institutsional müasir demokratik və şəffaf məhkəmə nəzarəti təsis olundu. Məhkəmə hakimiyyətinin nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, habelə hazırlıqlı və peşəkar hakim korpusunun formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Məhkəmə-Hüquq Şurası yaradıldı.

Prokurorluq orqanlarında totalitar rejimin əlamətlərini daşıyan səlahiyyətlərə son qoyularaq demokratik cəmiyyətin prinsiplərinə uyğun yeni üsulda təşkil olunaraq ibtidai istintaqa nəzarət, cinayət təqibinin həyata keçirilməsi, dövlət ittihamını müdafiə etmək kimi əsas funksiyalı hüquqlara malik oldu.

Məhkəmə hakimiyyəti ilə yanaşı, insan haqlarının təminatı kimi ümdə məqsəd olaraq prioritet olan hüquq-mühafizə orqanlarında mütərəqqi və davamlı islahatlara təkan verildi, o cümlədən "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunları və digər əsas mütərəqqi qanunlar qəbul edilərək qüvvəyə mindi.

Vəkillik institutu demokratik əsaslarla yenidən quruldu. Bəzi ölkələrdə hələ də dövlət orqanlarının tərkibində və ya nəzarəti altında fəaliyyət göstərən vəkillik xidməti tam müstəqil təsisata çevrildi. İnsan haqları üzrə xüsusi Dövlət Proqramı hazırlanaraq həyata keçirildi, pozulmuş hüquqların bərpasında mühüm rol oynayan müstəqil təsisat – Ombudsman institutu yaradıldı, ökəmiz insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşuldu.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. İnsan hüquqları və azadlıqlarının təmini məqsədilə aparılan siyasətin əsası məhz yaşamaq hüququnun təmin edilməsi olmuşdur. 1993-cü ildə ölüm cəzasının tətbiqi məhdudlaşdırıldı və 10 fevral 1998-ci il tarixdə Şərqdə ilk dəfə olaraq, ölkəmizdə ölüm cəzası ləğv olundu.

Daha sonra ölkəmiz "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmuş, növbəti məhkəmə islahatları həyata keçirilmiş, seçki sistemi təkmilləşdirilmiş, mətbuat və söz azadlığının daha etibarlı müdafiəsi təmin olunmuşdur. Ümummilli lider Heydər Əliyevin ölkəmizin demokratik inkişafı və tərəqqisi naminə həyata keçirdiyi demokratik islahatlar Azərbaycanın Avropaya inteqrasiyasına etibarlı zəmin yaratmışıdır.

Müstəqil Azərbaycan dövlətinin memarı olan Heydər Əliyev həm də müasir məhkəmə-hüquq sisteminin banisi kimi o dövrdə Azərbaycan Respublikasının bir çox beynəlxalq konvensiya və sazişlərə qoşulmasını da təmin etdi. Əlavə olaraq, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin müstəqil və birgə fəaliyyətinin təmin edilməsi ilə bağlı mühüm addımlar atıldı.

Ölkəmizin müasir demokratik dəyərlərə inteqrasiyasının və mütərəqqi təkamülünün nəticəsi kimi 2001-ci ildə dövlətimiz Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyası ölkəmizə şamil olunaraq ədalət mühakiməsinin daha səmərəli həyata keçirilməsinə, Məhkəmənin presedentlərinin tətbiqinə hüquqi zəmin yaratdı.

Hüquqi və suveren dövlət quruculuğunun Azərbaycan modelinin memarı kimi Ümummilli liderin təməlini atdığı məhkəmə-hüquq sistemində islahatlar bu gün uğurla davam etdirilir. Prezident İlham Əliyev ölkənin hüquq sisteminin müasirliyə cavab verən tərəqqisi üzrə davamlı tədbirlər həyata keçirir, mütərəqqi və dayanıqlı islahatlar təşəkkül tapır. Bütün bunlarla yanaşı, Ulu öndərin humanist və insanpərvər siyasətini uğurla davam etdirən və yaşadan ölkə başçısı Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə əfv sərəncamı imzalamışdır. Bu humanist aksiya ilə, ümumilikdə, 801 nəfər cəzadan azad olunmuş, 220 məhkumun cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmış və 118 nəfər məhkum isə digər cəzalardan azad olunmuşdur.

"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 3 aprel 2019-cu il tarixli fərmanına əsasən müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilmiş, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmış, məhkəmə icraatının effektivliyi yüksəldilmiş, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilmişdir.

Eyni zamanda, həmin fərmanla ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun müəyyən hissəsinin məhkəmə aparatları işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilməsi, mülki işlər üzrə məhkəmə icraatının effektivliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə, apellyasiya instansiyası məhkəmələrinə, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyələr verilmişdir.

Məhz ölkə başçısının məhkəmə sisteminə ayırdığı diqqətin nəticəsidir ki, ədalət mühakiməsinin əlçatanlığı və şəffaflığı daha da artırılmış, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması təmin edilmiş, fiziki və hüquqi şəxslərin "Elektron məhkəmə" informasiya sistemindən istifadəsinin təşviqi üçün tədbirlər görülmüş, məhkəməyə qədər mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirləri həyata keçirilmişdir.

Bundan əlavə, məhkəmələrin fəaliyyətinin daha optimal şəkildə qurulması, ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və məhkəmələrdə işlərə baxılma müddətlərinin qısaldılması məqsədilə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı əsaslı dərəcədə artırılmışdır.

Ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında da yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini yüksək səviyyədə təmin etmişdir.

***Əsmər ƏLİYEVA,***
***BDU-nun mülki proses və kommersiya hüququ kafedrasının müdiri, dosent,***

***Hikmət BABAYEV,***
***kafedranın müəllimi***

# "Heydər Əliyev: Dil, ədəbiyyat və incəsənət"

**Bakı Dövlət Universitetində akademik Nizami Cəfərovun "Heydər Əliyev: Dil, ədəbiyyat və incəsənət" kitabının təqdimat mərasimi keçirilib.**





Məclisdə çıxış edən BDU-nun rektoru, kitabın ideyasının və ön sözünün müəllifi Elçin Babayev qeyd edib ki, dünya şöhrətli siyasətçi Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi bir zamanda ölkəmizin suverenliyinin tam təmin olunması sevincimizi, gələcəyə inamımızı daha da artırır: "Universitetimizin ümumi dilçilik kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü, professor Nizami Cəfərovun ciddi elmi araşdırmalarının məhsulu olan "Heydər Əliyev: Dil, ədəbiyyat, incəsənət" kitabı Ulu öndərin ana dilimizin saflığının qorunması, milli ədəbiyyatımızın və incəsənətimizin çiçəklənməsi istiqamətində müqayisəyəgəlməz xidmətlərinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. BDU-nun "Heydər Əliyev İli" ilə bağlı tədbirlər planı əsasında hazırlanmış bu kitab yubileyə layiqli töhfədir".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa kitabın yüksək peşəkarlıq və məsuliyyətlə yazıldığını qeyd edib. Mədəniyyət nazirinin müavini Fərid Cəfərov isə diqqətə çatdırıb ki, Ümummilli liderin bütün fəaliyyəti ərzində dilimizin, mədəniyyət və incəsənətimizin inkişafı milli prioritetlərdən olub. Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Mətbuat Şurasının sədri Rəşad Məcid, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu, Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor Tofiq Hacıyev, milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli bildiriblər ki, Ulu öndər Heydər Əliyev həmişə dilimizə, ədəbiyyat və incəsənətimizə xalqımızın milli-mənəvi varlığının tərkib hissəsi kimi baxıb. "Heydər Əliyev: Dil, ədəbiyyat və incəsənət" kitabı bu siyasətin öyrənilməsinə və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Sonda kitabın müəllifi, akademik Nizami Cəfərov bildirib ki, Ulu öndərin zəngin irsi öyrənildikcə, yazıldıqca insanı bir daha heyrətləndirir. Heydər Əliyevin ana dilinə həssas münasibəti bütün cəmiyyət üçün mükəmməl örnəkdir. O, millətin tarixi kodlarını, mənəviyyatını yüksəltməyin yollarını bilirdi. Ona görə də təkcə dövlət qurucusu deyildi, eyni zamanda, millət qurucusu idi.

***N. QƏDİMOĞLU***
***XQ***

# Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri 34 173 000,0 min manat, xərcləri 36 763 000,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 33 397 645,0 min manat, yerli gəlirləri 775 355,0 min manat, mərkəzləşdirilmiş xərcləri 35 978 197,0 min manat, yerli xərcləri 784 803,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 895 000 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 5 675 600 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 47 400 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 336 000 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 7 591 000 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 4 215 000 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 333 300 000,0 |
| 2.7. | Aksizlər | 1 531 000 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 173 000 000,0 |
| 2.8. | Yol vergisi | 127 400 000,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 37 000 000,0 |
| 2.9. | Mədən vergisi | 158 300 000,0 |
| 2.10. | Gömrük rüsumları | 1 475 000 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 209 000 000,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 1 934 000,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 558 220 000,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 12 781 000 000,0 |
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 28 000 000,0 |
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 11 000 000,0 |
| 2.17. | Dövlət rüsumu | 354 000 000,0 |
| 2.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 21 000 000,0 |
| 2.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 831 000 000,0 |
| 2.20. | Sair daxilolmalar | 207 846 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri və fondların hesablarında ilin sonuna qalan istifadə olunmamış vəsait hesabına formalaşır:

| | | |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 523 940 000,0 |
| 3.1.1. | yol vergisi | 127 400 000,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 6 700 000,0 |
| 3.1.3. | idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 60 000 000,0 |
| 3.1.4. | idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 96 400 000,0 |
| 3.1.5. | Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu | 8 000 000,0 |
| 3.1.6. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 31 500 000,0 |
| 3.1.7. | sair daxilolmalar | 11 340 000,0 |
| 3.1.8. | 2024-cü il yanvarın 1-nə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun vəsaitinin qalığı | 182 600 000,0 |

**Maddə 4.** Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən (SVOP əməliyyatları istisna olmaqla) dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

**Maddə 5.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2024-cü il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarına aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar, sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarının digər gəlirləri.

**Maddə 6**. Bu Qanunun 9-cu maddəsi ilə 2024-cü il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 7.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 7.1. | Ümumi dövlət xidmətləri | 4 822 234 382,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 625 804 533,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 445 500 000,0 |
| 7.1.3. | xarici yardımlar | 80 000 000,0 |
| 7.1.4. | elm | 236 076 085,0 |
| 7.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 110 935 344,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 351 310 000,0 |
| 7.1.6.1. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) | 343 260 000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 6 500 000,0 |
| 7.1.6.3. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 550 000,0 |
| 7.1.7. | dövlət borcu | 1 972 608 420,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 6 421 047 420,0 |
| 7.2.1. | müdafiə qüvvələri | 2 465 552 086,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 413 410 402,0 |
| 7.2.3. | sərhəd xidməti | 487 698 516,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 5 132 430,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 3 049 253 986,0 |
| 7.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 3 000 000 000,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 2 956 658 891,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 145 974 083,0 |
| 7.3.2. | hüquq mühafizə | 2 206 248 949,0 |
| 7.3.3. | prokurorluq | 129 953 915,0 |
| 7.3.4. | məhkəmə qərarlarının icrası | 10 000 000,0 |
| 7.3.5. | hüquqi yardım | 5 562 128,0 |
| 7.3.6. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 458 919 816,0 |
| 7.4. | Təhsil | 4 549 916 090,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 453 018 349,0 |
| 7.4.2. | ümumi təhsil | 2 371 983 758,0 |
| 7.4.3. | peşə təhsili | 77 135 017,0 |
| 7.4.4. | orta ixtisas təhsili | 101 114 397,0 |
| 7.4.5. | ali təhsil | 134 806 154,0 |
| 7.4.6. | əlavə təhsil | 20 727 009,0 |
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 7 586 356,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 1 383 545 050,0 |
| 7.5. | Səhiyyə | 1 871 294 029,0 |
| 7.5.1. | poliklinikalar və ambulatoriyalar | 2 165 901,0 |
| 7.5.2. | xəstəxanalar | 231 490 056,0 |
| 7.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 9 483 230,0 |
| 7.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 628 154 842,0 |
| 7.5.4.1. | icbari tibbi sığorta fonduna ayrılan vəsait | 1 375 987 690,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 4 542 232 496,0 |
| 7.6.1. | sosial müdafiə | 521 285 835,0 |
| 7.6.2. | sosial təminat | 6 269 878,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 50 000,0 |
| 7.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 4 014 626 783,0 |
| 7.6.4.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 392 000 000,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 574 755 888,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 232 942 212,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 67 589 813,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 7 013 450,0 |
| 7.7.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 22 073 699,0 |
| 7.7.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 181 136 714,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 367 083 119,0 |
| 7.8.1. | mənzil təsərrüfatı | 69 078 201,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 183 593 917,0 |
| 7.8.3. | su təsərrüfatı | 3 407 499,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 111 003 502,0 |
| 7.9. | Kənd təsərrüfatı | 1 102 593 587,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 546 216 731,0 |
| 7.9.2. | baytarlıq | 48 458 232,0 |
| 7.9.3. | meliorasiya | 499 833 624,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 8 085 000,0 |
| 7.10. | Ətraf mühitin mühafizəsi | 376 872 901,0 |
| 7.10.1. | bioloji zənginliyin qorunması | 10 185 927,0 |
| 7.10.2. | torpaq və yerquruluşu | 18 600 000,0 |
| 7.10.3. | hidrometeorologiya tədbirləri | 11 058 407,0 |
| 7.10.4. | meşə təsərrüfatı | 20 028 759,0 |
| 7.10.5. | balıqçılıq və ovçuluq | 1 566 159,0 |
| 7.10.6. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 315 046 649,0 |
| 7.10.7. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 387 000,0 |
| 7.11. | İqtisadi fəaliyyət | 7 787 986 996,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 528 123 383,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 54 395 210,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 6 309 440 300,0 |
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 482 900 000,0 |
| 7.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 3 825 000 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 9 095 000,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 6 155 000,0 |
| 7.11.6. | iqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 144 000,0 |
| 7.11.7. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 880 634 103,0 |
| 7.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 390 324 201,0 |
| 7.12.1. | ehtiyat fondları | 410 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 300 000 000,0 |
| 7.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 110 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 523 940 000,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 523 940 000,0 |
| 7.12.2.1.1. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 175 000 000,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 452 384 201,0 |
| 7.12.4.1. | dövlət ehtiyatlarının yaradılması | 45 000 000,0 |
| 7.12.4.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000,0 |
| 7.12.4.3. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 14 366 639,0 |
| 7.12.4.4. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 373 017 562,0 |

**Maddə 8.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 13 865 000 000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 136 600 000,0 manat, yerli xərclər 784 803 000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 12 953 045 000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 9 448 000,0 manat məbləğində təsdiq edilsin.

**(manatla)**

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər: cəmi | Gəlirlər: o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | **Şəhərlər** | | | | | |
| 1. | Bakı | 12 596 770 000 | 113 967 000 | 349 195 000 | 12 133 608 000 | 0 |
| 2. | Gəncə | 100 090 000 | 1 808 000 | 40 076 000 | 58 206 000 | 0 |
| 3. | Lənkəran | 34 720 000 | 2 560 000 | 9 500 000 | 22 660 000 | 0 |
| 4. | Mingəçevir | 34 600 000 | 65 000 | 14 816 000 | 19 719 000 | 0 |
| 5. | Naftalan | 9 600 000 | 2 000 | 3 138 000 | 6 460 000 | 0 |
| 6. | Sumqayıt | 188 890 000 | 2 455 000 | 31 535 000 | 154 900 000 | 0 |
| 7. | Şəki | 35 100 000 | 1 893 000 | 7 989 000 | 25 218 000 | 0 |
| 8. | Şirvan | 31 240 000 | 1 790 000 | 5 158 000 | 24 292 000 | 0 |
| 9. | Yevlax | 24 500 000 | 2 753 000 | 7 337 000 | 14 410 000 | 0 |
| 10. | Xankəndi | | | | | |
| | **Rayonlar** | | | | | |
| 11. | Abşeron | 80 060 000 | 166 000 | 11 096 000 | 68 798 000 | 0 |
| 12. | Ağcabədi | 22 630 000 | 1 732 000 | 6 378 000 | 14 520 000 | 0 |
| 13. | Ağdam | 9 470 000 | 35 000 | 7 600 000 | 1 835 000 | 0 |
| 14. | Ağdaş | 12 680 000 | 12 000 | 6 345 000 | 6 323 000 | 0 |
| 15. | Ağdərə | | | | | |
| 16. | Ağstafa | 10 900 000 | 41 000 | 5 291 000 | 5 568 000 | 0 |
| 17. | Ağsu | 15 790 000 | 1 049 000 | 5 453 000 | 9 288 000 | 0 |
| 18. | Astara | 15 630 000 | 10 000 | 4 440 000 | 11 180 000 | 0 |
| 19. | Balakən | 9 460 000 | 23 000 | 4 359 000 | 5 078 000 | 0 |
| 20. | Beyləqan | 15 070 000 | 33 000 | 4 921 000 | 10 116 000 | 0 |
| 21. | Bərdə | 19 500 000 | 61 000 | 6 872 000 | 12 567 000 | 0 |
| 22. | Biləsuvar | 16 600 000 | 17 000 | 5 238 000 | 11 345 000 | 0 |
| 23. | Cəbrayıl | 2 510 000 | 16 000 | 3 708 000 | 0 | 1 214 000 |
| 24. | Cəlilabad | 13 870 000 | 35 000 | 6 361 000 | 7 474 000 | 0 |
| 25. | Daşkəsən | 6 880 000 | 1 000 | 3 610 000 | 3 269 000 | 0 |

(ardı 7-ci səhifədə)

# "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**(əvvəli 11-ci səhifədə)**

4.2. 2024-cü ilin dövlət büdcəsinə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər və gömrük rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.3. bu Fərmanın 1.1.4.23-cü, 1.4.8.12-ci, 1.7.5.8-ci, 1.7.5.24-cü, 1.9.1.7-ci, 1.11.7.29-cu, 1.11.7.31-ci, 1.11.7.34-cü, 1.12.4.4.2-ci, 1.12.4.4.3-cü, 1.12.4.4.5-ci, 1.12.4.4.7-ci və 1.12.4.4.9-cu yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

4.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

4.4.1. bu Fərmanın 1.5.4.11-ci (Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi), 1.8.4.5-ci (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər), 1.11.7.30-cu (İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı), 1.12.4.4.11-ci (İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması) və 1.12.4.4.12-ci (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.4.2. bu Fərmanın 1.1.1.58-ci, 1.1.4.25-ci, 1.2.5.3-cü, 1.3.6.5-ci, 1.4.8.13-cü, 1.5.4.12-ci, 1.6.3.1-ci, 1.7.5.26-cı, 1.9.4.1-ci, 1.10.7.1-ci, 1.11.7.11-ci və 1.12.4.4.6-cı yarımbəndlərində nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini bir ay müddətində həyata keçirsin;

4.4.3. bu Fərmanın 1.12.2.2-ci, 1.12.2.3-cü, 1.12.2.4-cü, 1.12.2.5-ci və 1.12.2.6-cı yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.4.4. bu Fərmanın 1.11.1.10-cu (İctimai nəqliyyat sahəsində islahatlarla bağlı xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifləri əsasında həyata keçirsin;

4.5. bu Fərmanın 1.9.1.6-cı (Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı hüquqmüəyyənedici sənədlərin verilməsi üçün göstərilən xidmətlərə görə xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin sifarişi əsasında maliyyələşməsini həyata keçirsin;

4.6. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun 12-ci maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün;

4.7. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun 13-cü və 14-cü maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

4.8. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

**6.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

6.1. bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. bu Fərmanın 1.11.7.1.1-ci (Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması) yarımbəndində nəzərdə tutulan vəsaitin ticarət nümayəndələri üzrə bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin;

6.3. bu Fərmanın 1.11.7.8-ci (Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

6.4. bu Fərmanın 1.11.7.33-cü (Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin;

6.5. bu Fərmanın 1.12.4.4.8-ci (Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

6.6. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**7.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1.1.2.4.1-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin.

**8.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

8.1. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun 9-cu maddəsində Bakı, Gəncə, Şəki və Lənkəran şəhərləri üzrə bu Fərmanın 1.6.2.2-ci (Yerli icra hakimiyyəti orqanları) yarımbəndində yerli xərclər üzrə nəzərdə tutulmuş 5 634 401,0 manatın və 1.6.2.1-ci (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi) yarımbəndində nəzərdə tutulmuş xərclərin 287 414,0 manatının bölgüsünü həyata keçirsin;

8.2. bu Fərmanın 1.6.4.6-cı (Paralimpiya, abilimpiya və xüsusi olimpiya oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

**9.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.7.4.2-ci (Qeyri-dövlət təşkilatlarına maliyyə yardımı) yarımbəndində nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və bölgüyə uyğun ödənişləri təmin etsin.

**10.** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmanın 1.10.6.3-cü (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) və 1.10.6.4-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə razılaşdırmaqla həyata keçirsin.

**11.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi:

11.1. bu Fərmanın 1.11.3.4-cü (Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

11.2. bu Fərmanın 1.12.4.4.10-cu (Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirsin.

**12.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi bu Fərmanın 1.12.4.2-ci (Fövqəladə halların nəticələrinin aradan qaldırılması) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin.

**13.** Azərbaycan Respublikasının İqtisadiyyat, Mədəniyyət, Gənclər və İdman, Səhiyyə, Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Elm və Təhsil, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Azərbaycan Respublikasının Diaspora İş üzrə, Dini Qurumlarla İş üzrə dövlət komitələri, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi, Azərbaycan Dövlət Su Ehtiyatları agentlikləri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri dövlət xidmətləri, Bakı Şəhər İcra Hakimiyyəti aidiyyəti üzrə bu Fərmanın 1.1.4.13-cü, 1.1.4.14-cü, 1.1.4.18-ci, 1.1.4.19-cu, 1.1.4.21-ci, 1.1.4.22-ci, 1.4.8.8-ci, 1.4.8.9-cu, 1.5.2.7-ci, 1.6.4.7-ci, 1.6.4.8-ci, 1.7.5.15-ci, 1.7.5.19-cu, 1.7.5.22-ci, 1.8.3.1-ci, 1.9.3.1-ci, 1.10.2.2-ci, 1.11.1.6-cı, 1.11.1.7-ci, 1.11.1.8-ci, 1.11.4.2-ci, 1.11.4.3-cü, 1.11.7.13-cü, 1.11.7.14-cü, 1.11.7.15-ci, 1.11.7.17-ci, 1.11.7.19-cu, 1.11.7.20-ci, 1.11.7.21-ci, 1.11.7.22-ci, 1.11.7.23-cü, 1.11.7.28-ci yarımbəndlərində, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 1.1.4.12-ci, 1.1.4.15-ci, 1.1.4.16-cı, 1.1.4.17-ci, 1.1.4.20-ci, 1.3.6.2-ci, 1.4.8.7-ci, 1.7.5.12-ci, 1.7.5.13-cü, 1.7.5.14-cü, 1.7.5.16-cı, 1.7.5.17-ci, 1.7.5.18-ci, 1.7.5.20-ci, 1.7.5.21-ci, 1.7.5.23-cü, 1.8.4.2-ci, 1.8.4.3-cü, 1.8.4.4-cü, 1.11.7.16-cı, 1.11.7.18-ci, 1.11.7.24-cü, 1.11.7.25-ci, 1.11.7.26-cı, 1.11.7.27-ci yarımbəndlərində göstərilən publik hüquqi şəxslər üçün nəzərdə tutulmuş vəsait daxilində, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"na uyğun olaraq, müvafiq publik hüquqi şəxslərlə 15 (on beş) gün müddətində dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsini təmin edən ikitərəfli müqavilələrin rəsmiləşdirilməsi üçün tədbirlər görsünlər.

**14.** Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşdirilən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

**15.** Müəyyən edilsin ki:

15.1. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun 2.14-cü, 3-cü maddəsinin birinci abzasında, 3.1-ci, 3.1.8-ci, 5.1-ci, 5.2-ci (hər iki halda), 7.12.2.1-ci, 9-cu (hər iki halda), 10-cu və 16-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

15.2. həmin Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

15.3. həmin Qanunun 2.14-cü, 5.2-ci (birinci halda) və 16-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

15.4. həmin Qanunun 3.1.8-ci və 14-cü maddələrində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları və Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

15.5. həmin Qanunun 3-cü maddəsinin birinci abzasında, 3.1-ci və 7.12.2.1-ci maddələrində "məqsədli büdcə fondları" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

15.6. həmin Qanunun 5.1-ci, 5.2-ci (ikinci halda) və 9-cu (hər iki halda) maddələrində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu nəzərdə tutulur.

**16.** Bu Fərmanın 1-ci hissəsi 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 dekabr 2023-cü il**

# "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 500; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 1053; 2011, № 7, maddə 699; 2012, № 4, maddə 354, № 6, maddə 594; 2014, № 12, maddə 1647; 2018, № 3, maddə 521; 2022, № 3, maddə 248; 2023, № 5, maddə 694) 2-ci hissəsində "757" rəqəmləri "813" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

# Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği**

2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən edilsin.

**Maddə 2. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 dekabr 2023-cü il**

# Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq qərara alır:

**Maddə 1. Ehtiyac meyarının həddi**

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2024-cü il üçün ehtiyac meyarının həddi 270 manat məbləğində təsdiq edilsin.

**Maddə 2. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 dekabr 2023-cü il**

# İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsinin gəlirləri 238 000 000,0 manat, xərcləri 238 000 000,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2024-cü ildə İşsizlikdən Sığorta Fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi<br>o cümlədən: | 179 976 800,0 |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 22 688 400,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 22 688 400,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə | 134 600 000,0 |
| 2.2. | Sair gəlirlər | 70 000,0 |
| 2.3. | 2023-cü ilin sonuna İşsizlikdən Sığorta Fondunun istifadə olunmamış vəsaiti | 57 953 200,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | İşsizliyə görə sığorta ödənişləri | 15 000 000,0 |
| 3.2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 35 000 000,0 |
| 3.3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 1 500 000,0 |
| 3.4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 500 000,0 |
| 3.5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 5 000 000,0 |
| 3.6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 73 000 000,0 |
| 3.7. | Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi | 4 000 000,0 |
| 3.8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 3.9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 55 000 000,0 |
| 3.10. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri | 45 000 000,0 |
| 3.11. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması | 1 000 000,0 |
| 3.12. | Sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi | 1 000 000,0 |
| 3.13. | Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv tədbirlər | 1 000 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İşsizlikdən Sığorta Fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında qalan sərbəst vəsait "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq növbəti ilin xərclərinin maliyyələşdirilməsinə və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən investisiyaya yönəldilir.

**Maddə 5. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 dekabr 2023-cü il**

# Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında

## *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsinin gəlirləri 6 919 860 000,0 manat, xərcləri 6 919 860 000,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2024-cü ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Məcburi dövlət sosial sığorta haqları, cəmi o cümlədən: | 5 288 135 400,0 |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 1 672 911 200,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 228 124 200,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə o cümlədən: | 3 387 100 000,0 |
| 2.1.3.1. | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 65 000 000,0 |
| 2.2. | Sair gəlirlər, cəmi o cümlədən: | 12 700 000,0 |
| 2.2.1. | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | 2 400 000,0 |
| 2.3. | Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait | 1 392 000 000,0 |
| 2.4. | Əvvəlki illərdə Dövlət Sosial Müdafiə Fondunun istifadə olunmamış vəsaitindən cari ilin xərclərinə yönəldilən məbləğ | 227 024 600,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | Əhaliyə ödənişlər üzrə xərclər | 6 681 580 000,0 |
| 3.1.1. | əmək pensiyalarının ödənilməsi xərcləri | 6 500 000 000,0 |
| 3.1.2. | məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri o cümlədən: | 181 580 000,0 |
| 3.1.2.1. | əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə | 43 700 000,0 |
| 3.1.2.2. | hamiləliyə və doğuma görə | 57 000 000,0 |
| 3.1.2.3. | uşağın anadan olmasına görə | 34 500 000,0 |
| 3.1.2.4. | 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar | 9 200 000,0 |
| 3.1.2.5. | dəfn üçün | 37 180 000,0 |
| 3.2. | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər | 24 500 000,0 |
| 3.3. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri | 78 500 000,0 |
| 3.4. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin saxlanılması xərcləri | 130 110 000,0 |
| 3.5. | Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri | 70 000,0 |
| 3.5.1. | Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 40 000,0 |
| 3.5.2. | Pensiya və Sosial Fondların Beynəlxalq Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 30 000,0 |
| 3.6. | Sair xərclər | 5 100 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

Dövlət Sosial Müdafiə Fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında qalan sərbəst vəsait "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq növbəti ilin xərclərinin maliyyələşdirilməsinə və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən investisiyaya yönəldilir.

**Maddə 5. Büdcə təşkilatları üzrə sosial sığorta haqları üzrə daxilolmaların tənzimlənməsi**

Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər Dövlət Sosial Müdafiə Fonduna tam məbləğdə daxil olmadıqda, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər artırılır, artıq daxil olduqda isə nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər azaldılır.

**Maddə 6. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 dekabr 2023-cü il**

# "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanununun tətbiqi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

**1.** Müəyyən edilsin ki:

1.1. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 3.3-cü, 3.4-cü bəndlərində və 4-cü maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 3.3-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 3.4-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur;

1.4. həmin Qanunun 4-cü maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulurlar;

1.5. həmin Qanunun 4-cü maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanununun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanunun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünü 10 (on) gün müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. büdcə təşkilatlarının 2024-cü il yanvarın 1-dək yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.4. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. bu Fərmanın 3.2-ci bəndində qeyd olunan bölgü nəzərə alınmaqla, 2024-cü il üçün dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi ilə bağlı dövlət büdcəsindən ayrılan vəsaitin (transfertin) aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla 10 (on) gün müddətində təsdiq etsin;

5.2. büdcədən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarını 2024-cü il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsın;

5.3. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**6.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

**7.** Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 dekabr 2023-cü il**

# "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanununun tətbiqi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 3.9-cu (hər iki halda) və 3.10-cu bəndlərində, 4-cü maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 3.9-cu bəndində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 3.9-cu bəndində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulur;

1.4. həmin Qanunun 3-cü maddəsinin 3.10-cu bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 4-cü maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulurlar;

1.6. həmin Qanunun 4-cü maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Dövlət Məşğulluq Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanununun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş işsizlikdən sığorta haqları üzrə gəlirlərin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanunun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş işsizlikdən sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünü 10 (on) gün müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. büdcə təşkilatlarının 2024-cü il yanvarın 1-dək yaranmış işsizlikdən sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.4. "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. büdcədən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış işsizlikdən sığorta haqları üzrə borclarını 2024-cü il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsın;

5.2. "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**6.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

**7.** Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 dekabr 2023-cü il**

# Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarı



**Dekabrın 26-da Azərbaycan Respublikası Baş nazirinin müavini, "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyası"nın sədri Şahin Mustafayevin rəhbərliyi ilə Nazirlər Kabinetində Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 sentyabr tarixli 3488 nömrəli Sərəncamından irəli gələn tədbirlərin həyata keçirilməsi ilə bağlı Komissiyanın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda Komissiyanın "2024-cü il üzrə İş planı", "Təhlükə potensiallı obyektlər, eləcə də təhlükə potensiallı obyektlərdə istismar olunan avadanlıqlara, qurğulara və digər alət və vasitələrə dair müasir tələblərə uyğun ilkin qəbul edilməsi zəruri olan texniki reqlamentlərlə bağlı Tədbirlər Planı", "İstifadəyə yararsız və istifadəsi qadağan olunmuş pestisidlər və aqrokimyəvi maddələr, o cümlədən ammonium nitratla çirklənmiş Azərbaycan Respublikasının ərazilərində mövcud problemlərin aradan qaldırılmasına dair Tədbirlər Planı" müzakirə olunaraq təsdiqlənib.

İclasda, həmçinin Komissiyanın Elektron Məlumat Bazasının (Portalının) formalaşdırılmasına, qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan "Təhlükə potensiallı obyektlər üzrə vahid dövlət reyestri"nin hazırlanmasına, təhlükə potensiallı obyektlərin istismarı sahəsində mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsinə, habelə Komissiyanın üzvü olan dövlət orqanlarına (qurumlarına) fəaliyyət istiqamətlərinə aid təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarı sahəsində nəzarətin gücləndirilməsinə dair müvafiq tapşırıqlar verilib.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri cənab Prezident.**

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Katibliyi adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Türk Dövlətləri Parlament Assambleyasının qurucu dövlətlərindən olan Azərbaycan Respublikasının Sizin rəhbərliyinizlə türk dövlətlərinin birliyi, həmrəyliyi və əməkdaşlığının daha da möhkəmləndirilməsinə yönəlmiş səyləri türk dünyasında təqdirlə qarşılanır. Qardaş dövlətlərlə möhkəm dostluq, qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlər bu əməkdaşlığın zənginləşməsinə, yüksələn xətt üzrə inkişafına güclü təsir göstərməkdədir.

Əldə edilmiş nailiyyətlərin türk dünyası üçün əhəmiyyəti böyükdür. Əminəm ki, birliyimiz naminə göstərdiyiniz dəstəklə türk dövlətləri arasında əlaqələr daha da şaxələnəcəkdir.

Həmçinin TÜRKPA Katibliyinin səmərəli fəaliyyəti üçün Azərbaycan Respublikası Hökuməti tərəfindən göstərilən daimi diqqətə və yaradılmış şəraitə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Bu xoş fürsətdən istifadə edərək, həmçinin Sizi və ailənizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, ali dövləti fəaliyyətinizdə uğurlarınızın daimi olmasını arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***Mehmet Süreyya ER,***
***Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi***

*

**Hörmətli İlham Heydər oğlu.**

Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə təbrik edirəm.

Sizə ali dövləti vəzifənizdə bundan sonra da aktiv və səmərəli fəaliyyət, möhkəm cansağlığı, səadət, firavanlıq, dostlarınızın səmimiyyətini və diqqətini, əzizlərinizin və yaxınlarınızın sevgisini arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, Sizə Rusiyanın və Azərbaycanın xüsusi xidmətləri arasında ölkələrimizin təhlükəsizliyinə təhdidlərə qarşı layiqli və etibarlı təminatın yaradılmasına, regionda sülhün və sabitliyin qorunmasına istiqamətlənən kəşfiyyat xətti üzrə qarşılıqlı fəaliyyətə göstərdiyiniz daimi diqqət və dəstəyə görə minnətdarlığımı bildirirəm.

**Hörmətlə,**

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktoru***

*

**Möhtərəm İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizi dünyada görkəmli dövlət xadimi, dahi atanızın siyasətinin müdrik və layiqli davamçısı kimi qəbul edirlər. Siz Azərbaycan xalqı üçün uzun illər Azərbaycan Respublikasının davamlı inkişafını, beynəlxalq arenada onun nüfuzunun möhkəmləndirilməsini təmin etmiş böyük lidersiniz. Ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası əbədi olaraq Sizin adınızla bağlı olacaq. Sizin ölkələrimiz arasında müttəfiqlik münasibətlərinin inkişafına verdiyiniz töhfə yüksək qiymətləndirilir.

Fəxr edirəm ki, uzun illərdir bizi dostluq bağları, qarşılıqlı hörmət və böyüklərimizin vəsiyyətləri birləşdirir.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoş əhvali-ruhiyyə, Zati-alinizə xas olan tükənməz enerji, Azərbaycan xalqının rifahı naminə daha məhsuldar fəaliyyət diləyirəm. Arzu edirəm ki, bütün təşəbbüsləriniz və planlarınız həyata keçsin. Sizin quruculuq fəaliyyətiniz daim sevinclə, əmin-amanlıqla, dostluq münasibətləri və xoş əhvali-ruhiyyə ilə müşayiət olunur.

Əminəm ki, Rusiya ilə qardaş Azərbaycanı birləşdirən sıx qarşılıqlı faydalı iqtisadi və humanitar əlaqələr bundan sonra da davam etdiriləcək.

**Dərin hörmətlə,**

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyasının senatoru***

*

**Möhtərəm cənab İlham Əliyev.**

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu il Sizin Azərbaycan Respublikasına rəhbərliyinizin 20 ili tamam oldu. Siz atanızın, əfsanəvi dövlət xadimi Heydər Əliyevin siyasətini davam etdirirsiniz.

Ölkəniz Sizin rəhbərliyinizlə siyasət, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə böyük uğurlar qazanıb. Mən Bakıda tez-tez oluram və Sizin hakimiyyətiniz dövründə Azərbaycanda baş verən böyük dəyişikliklərin şahidiyəm.

Sizə möhkəm cansağlığı arzulayıram. Bizdə - İsraildə deyildiyi kimi, 120 il yaşayasınız!

Sizə gözəl ölkənizin rifahı naminə yeni-yeni uğurlar diləyirəm.

Azərbaycan Respublikasına sülh və tərəqqi arzulayıram.

Səmimiyyətlə, Sizin,

***Aviqdor LİBERMAN,***
***İsrail Knessetinin deputatı, "İsrail Bizim Evimizdir" partiyasının sədri***

*

**Möhtərəm İlham Heydər oğlu.**

Xahiş edirəm, doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Qoy ruh yüksəkliyi, enerji və nikbinlik Sizə Azərbaycan Respublikasının rifahı naminə ən mürəkkəb dövləti vəzifələri yerinə yetirməyə kömək etsin, yüksək peşəkarlıq və insani keyfiyyətləriniz isə gələcək uğurların və ölkənin inkişafının rəhni olsun!

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uzun illər ərzində əmin-amanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Viktor PİNSKİ,***
***Ümumhəmkarlar İttifaqları Konfederasiyasının Baş katibi***

*

**Zati-aliləri.**

Doğum gününüz münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkətinin kollektivi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

İcazə verin, Sizə möhkəm cansağlığı, əmin-amanlıq, hər zaman nikbin əhvali-ruhiyyə, tükənməz quruculuq enerjisi, uğurlar və gələcəkdə də məhsuldar fəaliyyət arzulayım. Sizə və yaxınlarınıza parlaq gələcək, firavanlıq və xoş günlər diləyirəm.

**Dərin hörmətlə,**

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi, cansağlığı, xoşbəxtlik arzularımı çatdırmaqdan böyük şərəf duyuram.

Siz Azərbaycanı nümunəvi tolerantlıq və insan hüquqlarının müdafiəsi cəmiyyətinə çevirmisiniz. Çoxmillətli bir şirkətin rəhbəri və təcrübəli beynəlxalq ekspert kimi mən Azərbaycanda müxtəlif dinlərə və etnik icmalara misilsiz diqqət və hörmətin olduğunu təsdiq edə bilərəm. Yəhudi əsilli amerikalı kimi mən Azərbaycanda yəhudi icmasına göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirəm.

**Hörmətlə,**

***Con PURİJANSKİ,***
***ABŞ-da fəaliyyət göstərən "Joblio" şirkətinin təsisçisi və Baş icraçı direktoru***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə "CLAAS Global Sales" Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

Qoy Sizin səyləriniz Azərbaycan Respublikasına bundan sonra da rifah, sabitlik və sülh gətirsin! Azərbaycan Qafqazda "CLAAS" şirkəti üçün strateji əhəmiyyət kəsb edir. Biz "CLAAS" qrupu olaraq həmişə öz fəaliyyətimizdə Azərbaycan fermerlərinin şirkətimizin kənd təsərrüfatı texnikası və xidmətlərindən yararlanmalarına və məmnun qalmalarına çalışırıq.

**Dərin hörmətlə,**

***Kristian RADONS,***
***Almaniyanın "CLAAS Global Sales" Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyətinin üzvü***

*

**Möhtərəm cənab Prezident.**

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzrə Rusiya Milli Komitəsi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin böyük nüfuzunuz və Azərbaycanın Prezidenti vəzifəsində nail olduğunuz ciddi uğurlar yüksək peşəkarlığınızdan, səriştəli, qətiyyətli, işgüzar keyfiyyətlərə malik, fədakar, ən mühüm dövləti məsələləri həll edə bilən şəxsiyyət olduğunuzdan xəbər verir.

Cənab Prezident, bu şad gününüzdə Sizə gələcək fəaliyyətinizdə uğurlar, güc-qüvvət və əmin-amanlıq arzu edirəm. Qoy hər zaman yanınızda istənilən vəziyyətdə dəstəyinə arxalana biləcəyiniz insanlar olsun! Siz ikitərəfli konstruktiv dialoqun inkişafına fəal şəkildə kömək edirsiniz, ölkələrimiz və xalqlarımız arasında ənənəvi dostluq əlaqələrinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verirsiniz.

Sizə və ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

**Hörmətlə,**

***Viktor ARXİPOV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzrə Rusiya Milli Komitəsinin sədri***

*

**Hörmətli İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin vətənpərvər şəxsiyyət kimi fəal həyat mövqeyiniz, dövlət əhəmiyyətli vəzifələri yüksək səviyyədə icra etməyiniz Vətənə ləyaqətli xidmətin örnəyidir. Siz həmvətənləriniz arasında və xaricdə təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin əsl Lideri kimi böyük nüfuza maliksiniz.

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə mürəkkəb geosiyasi şəraitdə genişmiqyaslı siyasi, iqtisadi islahatlar və dəyişikliklər, əhalinin sosial rifahının artırılması yolunda inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir.

Siz Azərbaycan Respublikasında Heydər Əlirza oğlu Əliyevin islahatçı siyasətinin layiqli davamçısısınız. Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan ilə Rusiya arasında iqtisadi, mədəni, siyasi əlaqələr gündən-günə genişlənir və möhkəmlənir. Bir soydaş kimi, tarixi Vətənimlə fəxr edir və onu əziz tuturam.

Qoy enerji, gümrahlıq və ruh yüksəkliyi uzun illər Sizinlə olsun! Sizə cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram.

Sizə və yaxınlarınıza, bütün Azərbaycan xalqına sülh və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***Həsən MİRZƏYEV,***
***Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının prezidenti, Beynəlxalq Rusiyalı Həmvətənlər Şurasının sədri, Rusiya Vəkillər Gildiyasının prezidenti, Rusiya Federasiyasının Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor, Rusiyanın fəxri ədliyyə işçisi***

*

**Möhtərəm cənab Prezident.**

Finlandiya Azərbaycanlıları Assosiasiyası və Finlandiya Azərbaycanlı Qadınlar Cəmiyyəti adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımızı çatdırırıq.

Ötən 20 il ərzində Ümummilli Lider Heydər Əliyevin ideyalarını uğurla davam etdirərək yürütdüyünüz müdrik və məqsədyönlü siyasət nəticəsində Azərbaycan bölgənin lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevrilib.

Sizin Ali Baş Komandanlığınızla şanlı Ordumuzun 2020-ci ildə 44 günlük Vətən müharibəsində, 2023-cü ildə isə 24 saat ərzində həyata keçirilən antiterror tədbirləri nəticəsində qazandığı möhtəşəm qələbələrlə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Siz son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı işğaldan azad edən müzəffər sərkərdə oldunuz.

Fürsətdən istifadə edərək Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2024-cü il münasibətilə də təbrik edirik. 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Sizə uğurlar diləyirik. Biz Sizin inamlı qələbənizə inanırıq.

**Dərin hörmətlə,**

***Vasif MURADLI,***
***Finlandiya Azərbaycanlıları Assosiasiyasının sədri***
***Arzu OQTAY,***
***Finlandiya Azərbaycanlı Qadınlar Cəmiyyətinin sədri***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirik.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük nailiyyətlər qazanıb. Biz Sizin uzaqgörən siyasətinizin respublikamızı daim parlaq qələbələrə doğru aparacağına inanırıq. Hər zaman Sizin yanınızdayıq. Qarşıdan gələn növbədənkənar prezident seçkilərində Sizi dəstəkləyəcəyik.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar arzulayırıq.

**Hörmətlə,**

***Nadir HOLLENBRAND,***
***İsveçdə fəaliyyət göstərən "Azərbaycan Naminə" Cəmiyyətinin sədri***

*

**Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan.**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, işlərinizdə böyük uğurlar arzulayıram.

Ali Baş Komandan olaraq Sizin rəhbərliyinizlə şanlı Azərbaycan Ordusu 30 ildən sonra nəhayət əzəli torpaqlarını düşmən tapdağından xilas etdi. Sizin siyasi-strateji qətiyyətiniz sayəsində Qarabağ münaqişəsinə birdəfəlik son qoyuldu. Azərbaycan xalqının ölkə hüdudlarından kənarda yaşayan nümayəndəsi və diaspor təşkilatının rəhbəri olaraq Sizə dərin minnətdarlığımı bildirirəm.

Vətən müharibəsindən sonra Azərbaycanın Qarabağ bölgəsində Sizin rəhbərliyinizlə böyük bərpa və quruculuq işləri həyata keçirilir. Qısa müddət ərzində reallaşdırılan bərpa işləri, sözün əsl mənasında, heyrət doğurur. Həmçinin otuz il əvvəl zorla yerindən-yurdundan didərgin salınmış keçmiş məcburi köçkünlərin bu gün öz doğma yurdlarına qayıtmaları çox sevindiricidir.

Siz Azərbaycanın yeni tarixini yazdınız. Sizin rəhbərliyinizlə bu gün Azərbaycan beynəlxalq aləmdə sabit, öz üzərinə düşən öhdəliklərini layiqincə yerinə yetirən ölkə kimi qəbul olunur. Praqmatik və rasional düşüncəli Lider olaraq davamlı siyasi sabitlik, təhlükəsizlik, sülh üçün gördüyünüz işləri səmimi-qəlbdən dəstəkləyirik. Əminik ki, həyata keçirdiyiniz siyasət ölkəmizə daha böyük uğurlar və qələbələr gətirəcəkdir.

Möhtərəm cənab Prezident, Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, ailə səadəti və Azərbaycanı daha yüksək zirvələrə aparan yolda böyük uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlhan AŞKIN,***
***Niderlanddakı Azərbaycan-Türk Mədəniyyət Dərnəyinin rəhbəri***

*

**Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan.**

Doğum gününüz münasibətilə Monreal Kanada-Azərbaycan Cəmiyyəti adından və şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan şərəf duyuram.

Bu gün Azərbaycan güclü, qalib dövlətdir. Sizin rəhbərliyinizlə Azərbaycanın həm ölkə daxilində, həm də beynəlxalq arenada qazandığı uğurlar, siyasi müdrikliyiniz, müstəsna səriştəniz dünya siyasi liderləri tərəfindən də yüksək qiymətləndirilir. Sizin yürütdüyünüz uzaqgörən və qətiyyətli siyasət sayəsində Azərbaycan tarixinin şanlı səhifələri yazıldı. Ali Baş Komandanı olduğunuz müzəffər Azərbaycan Ordusunun mərd, qəhrəman əsgər və zabitləri torpaqlarımızı işğaldan azad edib, haqq-ədalətin zəfər çaldığı tarixi Qələbəni qazandılar. Sizin müdrik rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda atdığınız uğurlu addımlar, azad edilmiş ərazilərin qısa müddətdə bərpası, yüksək səviyyədə aparılan tikinti və abadlıq işləri göz oxşayır.

Vətəndən çox uzaqda yaşasaq da, ürəyimiz daim Vətən sevgisi ilə döyünür. Sizin işğaldan azad edilmiş şəhər və rayonlarda şanlı Azərbaycan Bayrağını ucaldaraq söylədiyiniz nitqləri böyük həyəcan, qürur və fəxrlə izləyirik. Xankəndidə keçirilmiş hərbi paradı izləyərkən yaşadığımız hissləri dilə gətirmək çətindir. Bu tarixi paradı sevinc göz yaşları ilə, böyük fəxr və qürurla izləyib, Sizi və Ordumuzu bir daha ayaq üstə alqışladıq. Uzun illər idi dünya azərbaycanlılarının bütün bayramlarda dilə gətirdiyi tək bir arzu, dilək bu idi ki, "o gün olsun torpaqlarımız işğaldan azad olunsun və Azərbaycan Bayrağı Şuşada, Xankəndidə və digər tarixi ərazilərimizdə dalğalansın". Müzəffər Ali Baş Komandan, Sizin və şücaətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində xalq olaraq biz bu arzuya çatdıq. İndi artıq qalib xalq olaraq qürurla, başıuca yaşayırıq.

Cənab Prezident, Sizi bir daha təbrik edir, dərin ehtiram və sevgimizi ifadə edərək Sizə möhkəm cansağlığı, hər zaman xoş əhvali-ruhiyyə, ölkənin və xalqın rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq. Həmçinin Sizi və gözəl ailənizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımızı çatdırırıq.

**Hörmətlə,**

***Rəna MÜSLÜMOVA,***
***Monreal Kanada-Azərbaycan Cəmiyyətinin sədri***

*

**Möhtərəm cənab Prezident.**

Azərbaycan-Ukrayna İş Adamları və Sənayeçiləri Birliyinin kollektivi adından Sizi doğum gününüz münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, bütün niyyət və istəklərinizin uğurla həyata keçməsini, ölkəmizə isə sülh, əmin-amanlıq və firavanlıq diləyirəm.

Cənab Prezident, Sizin uğurlu siyasətiniz sayəsində torpaqlarımız işğaldan azad olunmuşdur. Vətən müharibəsində qazanılan şanlı Qələbə nəticəsində əldə olunmuş nailiyyətlər 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri ilə yekunlaşmış, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində öz suverenliyini tam bərpa etmişdir.

Azərbaycan Respublikasının öz inkişafında yeni dövrə qədəm qoyduğu bir dönəmdə biz Sizin regionda davamlı sülhə nail olunması istiqamətində göstərdiyiniz ardıcıl və yorulmaz səyləri alqışlayırıq. Azərbaycanın çoxtərəfli əməkdaşlıq çərçivəsində mühüm regional təşəbbüslər və layihələr həyata keçirməklə bölgədə sabitliyə, təhlükəsizliyə və inkişafa verdiyi töhfə həqiqətən təqdirəlayiqdir. Xüsusilə Ukrayna üçün çətin bir zamanda bu ölkənin xalqına göstərdiyiniz humanitar yardıma görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Hörmətli cənab Prezident, Sizə fəaliyyətinizdə daha böyük uğurlar arzulayır, həmçinin inklüziv regional təşəbbüslər və qlobal əhəmiyyətli layihələri həyata keçirməklə bölgənin potensialının tam şəkildə ortaya çıxarılması və istifadə edilməsi üçün göstərilən səylərə töhfə verməyə hazır olduğumuzu bildiririk.

**Dərin hörmət və ehtiramla,**

***Əli ƏLİYEV,***
***Kiyevdə fəaliyyət göstərən Azərbaycan-Ukrayna İş Adamları və Sənayeçiləri Birliyinin sədri***

# Qərbi Azərbaycan İcması deputatlarının bəyanatı

**Milli Məclisdə təmsil olunan Qərbi Azərbaycan İcmasının nümayəndələri bəyanat yayıblar. Sənəddə deyilir:**

"Azərbaycan Respublikasının suverenliyi onun bütün ərazisində bərqərar edildikdən sonra Ermənistanla sülh sazişinin bağlanması üçün artıq heç bir maneə qalmayıb. Bu il dekabrın 7-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası Baş naziri Aparatının qəbul etdikləri birgə Bəyanat iki dövlət arasında etimad yaradılması yolunda mühüm irəliləyiş olub".

Daha sonra bildirilir ki, Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələri Azərbaycan Prezidentinin regionda möhkəm sülh və sabitlik yaradılması və əməkdaşlıq əlaqələri qurulması istiqamətində təşəbbüs və səylərini qətiyyətlə dəstəkləyirlər: "İcma nümayəndələri hesab edirlər ki, Qərbi azərbaycanlıların indiki Ermənistan ərazisindəki ata-baba yurdlarına qayıtması hüququnun tanınması Azərbaycanla Ermənistan arasında etimad quruculuğunun mühüm vasitələrindən biridir. Bu, iki dövlət arasında real barışığın əldə edilməsinə və regionda birgəyaşayış mühitinin yaradılmasına yönələn önəmli addım olacaq".

***XQ***

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**Dekabrın 26-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**



MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, əvvəlcə Komissiyanın 2023-cü il 21 dekabr və 23 dekabr tarixli iclaslarının protokolları təsdiq olunub.

Sonra 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliklərin irəli sürülməsi ilə əlaqədar məsələlərə baxılıb. Namizədlikləri özləri tərəfindən irəli sürülmüş Sərvan İdris oğlu Kərimovun, Mətləb Əzizulla oğlu Mütəllimlinin, Abutalıb Qənbər oğlu Səmədovun, Fikrət Hüseyn oğlu Yusifovun, Yusif Qəzənfər oğlu Bağırzadənin, Arzuman Səid oğlu Abdulkərimovun, Yunus İsaxan oğlu Oğuzun və Qulamhüseyn Surxay oğlu Əlibəylinin namizədliyinin irəli sürülməsi təsdiq edilib.

Komissiya öz təşəbbüsləri ilə namizədliklərin irəli sürülməsi təsdiq olunanlardan səlahiyyətli nümayəndələr təqdim edənlərin müraciətlərinin təmin olunmasına qərar verib.

Xarici ölkə səfirliyinin və media qurumlarının nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib və cari məsələlərə baxılıb.

**XQ**

# YAP imza vərəqələrini MSK-ya təqdim edib

**Yeni Azərbaycan Partiyası 50 min seçici imzasının olduğu imza vərəqələrini Mərkəzi Seçki Komissiyasına təqdim edib.**

Yeni Azərbaycan Partiyası 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikası Prezidentliyinə irəli sürdüyü namizəd İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün topladığı 50 min seçici imzasının olduğu imza vərəqələrini Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən tələb olunan digər sənədlərlə birlikdə dekabrın 26-da Mərkəzi Seçki Komissiyasına təqdim edib.

"Bu prosesin qısa müddət ərzində və mütəşəkkil surətdə həyata keçirilməsində zəhməti olan bütün siyasi həmfikirlərimizə təşəkkürümüzü bildirir və fürsətdən istifadə edərək partiya üzvlərimizi, bütün Azərbaycan xalqını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edir, hər birinizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, doğma Azərbaycanımıza isə sülh və tərəqqi, Azərbaycan Respublikası Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da yeni-yeni qələbə və Zəfərlər arzu edirik", - deyə partiyanın məlumatında bildirilib.

**XQ**

# Sumqayıtda regional seminar



**Gələn il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə, azad, ədalətli və şəffaf təşkil olunması məqsədilə Mərkəzi Seçki Komissiyası ardıcıl və sistemli şəkildə genişmiqyaslı tədbirlər keçirir. Seçki iştirakçıları üçün müxtəlif istiqamətləri əhatə edən maarifləndirmə proqramına uyğun olaraq, MSK-nın Hüquq və İnsan Haqları İnstitutu ilə birgə layihəsi çərçivəsində Sumqayıtda seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr edilən regional seminar təşkil olunub.**

Tədbirdə Hüquq və İnsan haqları üzrə mütəxəssislər, Abşeron, Sumqayıt, Quba, Xızı, qərb zonası üzrə dairə seçki komissiyalarının ekspert qruplarının üzvləri iştirak ediblər.

Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadə "Seçki hüquqlarının pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırması prinsipləri", Hüquq və İnsan Haqları İnstitutunun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin müdiri Vüsalə Muradxanlı "Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququ (1 hissə)" mövzusunda təqdimatlarla çıxış ediblər.

Bildirilib ki, yeni forma və məzmunda ilk dəfə Azərbaycan Respublikası Prezidenti seçkilərində keçirilən tədbir vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılmasına, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib. Əyani vəsaitlərdən istifadə etməklə mövzular barədə ətraflı məlumat verilib.

MSK üzvü Nailə Əsgərovanın, institutun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin təlimçi-eksperti Hamlet Babayevin seçkilərlə bağlı Ekspert qruplarının fəaliyyətlərinin əsasları, kazuslar üzrə praktiki məşğələlər, sınaq testlərin həlli və digər məsələlər ətrafında maraqlı və faydalı çıxışları dinlənilib.

Tədbirin praktiki hissəsində seçki qanunvericiliyi və ekspert fəaliyyəti ilə bağlı kazuslar üzrə məşğələlər keçirilib, iştirakçılar sınaq testlərinin həllinə cəlb edilib.

Sonda iştirakçılara ilk dəfə olaraq ekspert qrupunun üzvləri üçün hazırlanan, onlara yardımçı olacaq yeni yaddaş kitabçası paylanılıb.

Qeyd edək ki, layihənin proqramına əsasən, növbəti seminar dekabrın 27-də Gəncə və Şəkidə keçiriləcək.

**XQ**

# Qadınlar seçiciləri fəallığa çağırırlar

**Dünən 9 qadın qeyri-hökumət təşkilatının iştirakı ilə Forum keçirilib.**

Məclisdə çıxış edənlər Ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın və onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə hər bir sahədə əldə edilən uğurlara diqqət çəkiblər. Onlar fevralın 7-də keçiriləcək prezident seçkilərində ölkəmizin davamlı inkişafı, xalqımızın firavanlığı naminə hüquqlarımızı daim müdafiə edən Yeni Azərbaycan Partiyasının yeganə namizədini dəstəklədiklərini ifadə edərək seçiciləri fəallığa çağırıblar.

**XQ**



# Hüquqşünas-alimlərin bəyanatı

**Ölkənin Dissertasiya şuraları tərkibində fəaliyyət göstərən 37 hüquqşünas-alim 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində yüksək vətəndaş fəallığı göstərməyə çağırıblar.**

Bildirilib ki, hazırkı qlobal, regional siyasi-iqtisadi reallıqlar şəraitində ölkəmizin davamlı və dayanıqlı inkişafında cənab İlham Əliyevin siyasi kursunun davam etdirilməsi danılmazdır.

**XQ**

# ELAN

**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində prezidentliyə qeydə alınan namizədlərə seçkiqabağı təşviqat aparmaq məqsədilə aşağıda göstərilən media subyektlərində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq:**

**- İctimai Televiziya və Radio Yayımları Şirkəti;**
**- "Azərbaycan" qəzeti;**
**- "Xalq qəzeti";**
**- "Respublika" qəzeti;**
**- "Bakinski raboçi" qəzeti.**

Yuxarıda göstərilən qurumlar, o cümlədən digər televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək dərc etmədirlər.

**Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası**

## Mərkəzi Seçki Komissiyasının 2023-cü il 21 dekabr və 23 dekabr tarixli iclas protokollarının təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il 21 dekabr və 23 dekabr tarixli iclas protokolları təsdiq edilsin.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Sərvan İdris oğlu Kərimovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Sərvan İdris oğlu Kərimovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Sərvan İdris oğlu Kərimovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Mətləb Əzizulla oğlu Mütəllimlinin namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən qərara alır:

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Abutalıb Qənbər oğlu Səmədovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Abutalıb Qənbər oğlu Səmədovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Abutalıb Qənbər oğlu Səmədovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fikrət Hüseyn oğlu Yusifovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Fikrət Hüseyn oğlu Yusifovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fikrət Hüseyn oğlu Yusifovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yusif Qəzənfər oğlu Bağırzadənin namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yusif Qəzənfər oğlu Bağırzadənin namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yusif Qəzənfər oğlu Bağırzadənin namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Arzuman Səid oğlu Abdulkərimovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Arzuman Səid oğlu Abdulkərimovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Arzuman Səid oğlu Abdulkərimovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yunus İsaxan oğlu Oğuzun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yunus İsaxan oğlu Oğuzun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yunus İsaxan oğlu Oğuzun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qulamhüseyn Surxay oğlu Əlibəylinin namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Qulamhüseyn Surxay oğlu Əlibəylinin namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qulamhüseyn Surxay oğlu Əlibəylinin namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Abutalıb Qənbər oğlu Səmədovun səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Abutalıb Qənbər oğlu Səmədov səlahiyyətli nümayəndələr təyin etmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Cavid Abutalıb oğlu Səmədov və Könül Yahyabala qızı Səmədova Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Abutalıb Qənbər oğlu Səmədovun səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fikrət Hüseyn oğlu Yusifovun səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Fikrət Hüseyn oğlu Yusifov səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Xanlar İdris oğlu Quliyev Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Fikrət Hüseyn oğlu Yusifovun səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yusif Qəzənfər oğlu Bağırzadənin səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Yusif Qəzənfər oğlu Bağırzadə səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Tural İsaq oğlu Hacıqurbanlı Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Yusif Qəzənfər oğlu Bağırzadənin səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Arzuman Səid oğlu Abdulkərimovun səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Arzuman Səid oğlu Abdulkərimov səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində İlqar Bayraməli oğlu Bayraməliyev Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Arzuman Səid oğlu Abdulkərimovun səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yunus İsaxan oğlu Oğuzun səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Yunus İsaxan oğlu Oğuz səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Telman Abiəli oğlu Qasımov Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Yunus İsaxan oğlu Oğuzun səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qulamhüseyn Surxay oğlu Əlibəylinin səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Qulamhüseyn Surxay oğlu Əlibəyli səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Xanoğlan Əlüseyn oğlu Əhmədov Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Qulamhüseyn Surxay oğlu Əlibəylinin səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

**1.** Aynur Mustafa qızı Süleymanova 27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

**2.** Günay Bakir qızı Əsədova 37 saylı Qaradağ, Valeh Zakir oğlu Ocaqverdiyev 110 saylı Balakən, Zülfüqar Cəfər oğlu Cəfərov 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

# Qeyri-neft-qaz sektorundan büdcə daxilolmaları artıb

(əvvəli 1-ci səhifədə)

Hazırda vergi xidməti ölkənin büdcə gəlirlərinin formalaşması, iqtisadi inkişafın təmin edilməsi və sahibkarlığın dəstəklənməsi prosesində mühüm rol oynayır. Dövlət büdcəsinə vergi daxilolmalarının yüksək səviyyədə reallaşması, vergiödəyicilərinə xidmətlər çeşidinin və biznesin fəaliyyətinə səmərəli vergi nəzarətinin qurulmasında rəqəmsallaşmanın genişləndirilməsi vergi orqanlarının fəaliyyətinin başlıca prioritetlərini təşkil edir.

Vergilərin ölkənin maliyyə dayanıqlığının təmin edilməsində



rolu ildən-ilə artır. Dövlət Vergi Xidmətinin məlumatına əsasən, 2002-ci illə müqayisədə vergi daxilolmalarında artımın 23 dəfəyə yaxın, qeyri-neft-qaz sektorundan daxilolmaların isə 23,4 dəfəyədək yüksəlməsi də bunun bariz ifadəsidir.

Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi nəticəsində bölgələrdən daxilolmalarda son 20 il ərzində 35,8 dəfə artım qeydə alınıb. Vergi daxilolmalarının əhəmiyyətli artımı ölkəmizin maliyyə imkanlarının genişlənməsinə mühüm dəstək olub. İqtisadiyyatın böyüməsi işgüzar fəallığın yüksəlməsini, sahibkarların sayının ildən-ilə artmasını şərtləndirib. Belə ki, əgər 2002-ci ildə ölkədə cəmi 180 minə yaxın sahibkarlıq subyekti mövcud idisə, 2022-ci ilin sonuna qeydiyyatda olan vergiödəyicilərinin sayı 1,4 milyondan çox olub, fəal vergiödəyicilərinin sayı isə 2022-ci ilin sonuna 712 min təşkil edib.

Yeri gəlmişkən, 2018-ci ildən etibarən vergi sistemində yeni keyfiyyət mərhələsi başlanıb. Həyata keçirilən kompleks tədbirlər nəticəsində əmək müqavilələrinin bağlanması intensiv xarakter alıb. Qeyri-neft-qaz özəl sektorun əmək müqavilələrində payı islahatın başlanğıcında olan 38,5 faizdən 49,8 faizə yüksəlib.

Bu dövrdə sahibkarlıq mühitində və vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi tələbi müəyyənləşdirilib. "Kölgə iqtisadiyyatı" ilə mübarizə və iqtisadiyyatda şəffaflığın təmin edilməsi üzrə vergi sistemində həyata keçirilən tədbirlər vergi daxilolmalarının artıması ilə nəticələnib: 2022-ci ildə ilk dəfə dövlət büdcəsinə 15,5 milyard manat həcmində vergi daxilolması təmin edilib.

Hazırda ölkə iqtisadiyyatının mühüm bir hissəsini işğaldan azad edilmiş ərazilərdə quruculuq və bərpa işləri, ənənəvi sahələrin dirçəldilməsi və innovativ biznes modellərinin yaradılması təşkil edir. Vergi sistemində aparılan islahatların mühüm bir bölümü bu tendensiyaya təkan verməkdən ibarətdir. Dayanıqlı iqtisadiyyatın qurulmasına töhfə verən vergi sistemi Qarabağ iqtisadiyyatının reinteqrasiyası üçün lazım olan alətləri təşviq edir.

Dövlət başçısı Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldarkən iqtisadi sahədə əldə edilmiş nəticələrə də toxunub: "Biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır".

Beləliklə, göründüyü kimi, son illərdə iqtisadi şəffaflaşma, biznes mühitinin cəlbediciliyinin artırılması, "kölgə iqtisadiyyatı"nın minimallaşdırılması, haqsız rəqabətin aradan qaldırılması, əlverişli biznes şəraitinin yaradılması vergi siyasətinin əsas istiqamətləri kimi diqqət mərkəzində saxlanılıb. Hazırda isə vergi sahəsi ilə bağlı əsas hədəflərin, ilk növbədə, iqtisadi təşviq, effektiv nəzarət, rəqəmsallaşma prinsipləri əsasında reallaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub. İqtisadi diversifikasiya və investisiyaların cəlbində vergi siyasətinin tənzimləyici rolunun davam etdiriləcəyi və "kölgə iqtisadiyyatı" ilə sistemli mübarizənin yenə də əsas prioritet olaraq qalacağı nəzərdə tutulub.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi



**Mirağa ƏHMƏDOV, iqtisadçı-ekspert**

**Vergi sisteminin inkişafı məqsədilə bu gün də qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi məqsədilə önəmli tədbirlər həyata keçirilir. "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanun layihəsinin hazırlanması və habelə bir sıra normativ hüquqi akt layihələrin Milli Məclisdə 3-cü oxunuşda qəbul edilməsi məhz bunun bariz ifadəsidir. Məsələn, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində mühüm dəyişikliklərdən biri 2024-cü ildə müddəti bitən vergi güzəştlərinin vaxtının uzadılması ilə bağlıdır. Belə ki, Vergi Məcəlləsində nəzərdə tutulan bir sıra vergi güzəştlərinin tətbiqi müddəti 2024-cü il yanvarın 1-də başa çatır. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına münasibətdə tətbiq edilən güzəştlərin də bu siyahıya daxil olduğunu, aqrar sektorun ərzaq təhlükəsizliyi və məşğulluğun təmin edilməsində mühüm rolunu nəzərə alaraq, bu sahə üzrə güzəştlər daha 3 il müddətinə uzadılır.**

**Bununla yanaşı, Vergi Məcəlləsində heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə olunan, siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr 2020-ci il yanvarın 1-dən 4 il müddətinə ƏDV-dən azad edilib. Belə ki, qanunvericiliyin tələbinə görə, siyahı üzrə təsdiqlənən yem və yem əlavələrinin birbaşa heyvandarlıq və quşçuluq təsərrüfatlarına satışı zamanı ƏDV-dən azadolma tətbiq edilirdi. Vergi qanunvericiliyində yeni dəyişikliyə əsasən, həmin məhsulların idxalçıları və ya istehsalçıları tərəfindən belə məhsulların topdansatış qaydasında istənilən mərhələsində satışı ƏDV-dən azad olunur. Beləliklə, güzəşt üzrə ƏDV azadolmasının tətbiqi dairəsinin genişləndirilməsi nəzərdə tutulur.**

**Bundan başqa, bir sıra digər istiqamətlər üzrə müddəti bitən güzəştlər daha 3 il uzadılıb. Belə ki, Bakı Şəhər Halqası ilə "Formula 1" Şirkətlər Qrupu arasında Azərbaycan Qran-prisinin keçirilmə müddətinin artırılmasına dair yeni müqavilənin imzalanması ilə əlaqədar bu sahə üzrə mənfəət və ƏDV güzəştlərinin müddəti artırılıb. Həmçinin təsdiqlənən siyahı üzrə dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qurumla bağlanılan müqavilə əsasında işlərin və xidmətlərin göstərilməsinin ƏDV-dən azad edilməsi müddəti uzadılıb.**

**Eləcə də, "Tibbi sığorta haqqında" Qanuna uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsinin ƏDV-dən azad edilməsi müddətləri də artırılıb. Əlavə olaraq bu güzəştin təsdiqlənən siyahı üzrə ictimai və sosial məqsədlər üçün yaradılmış fondların, o cümlədən "Qarabağ Dirçəliş Fondu", "Yaşat Fondu", "Heydər Əliyev Fondu"nun vəsaitləri hesabına tibbi xidmətlərin göstərilməsinə də şamil edilməsi nəzərdə tutulur.**



## Banklar 1 milyard manata yaxın qazanc götürüb

**Azərbaycan Mərkəzi Bankının məlumatına görə, cari ilin yanvar–noyabr aylarında bankların xalis mənfəəti 997 milyon manat təşkil edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 16 faiz çoxdur.**

Hesabat dövrü üzrə bank sektoru tərəfindən 131 milyon manat məbləğində mənfəət vergisi ödənilib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 29,5 faiz və ya 57,9 milyon manat daha çoxdur.

## Bu il 437 milyon manat ipoteka krediti verilib

**Bu ilin yanvar–noyabr aylarında İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 436,7 milyon manat kredit verilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 11,8 faiz çoxdur. Bu barədə Azərbaycan Mərkəzi Bankından məlumat verilib.**



Bildirilib ki, hesabat dövründə fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği 29,2 faiz artaraq 452,6 milyon manat təşkil edib. Bununla belə, il ərzində İKZF-nin istiqraz buraxmaqla cəlb etdiyi vəsaitin məbləği 1,3 faiz azalaraq 370 milyon manata, fonda dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği isə 8 faiz azalaraq 87,6 milyon manata düşüb.

## İllik sığorta yığımı 26,6 faiz çoxalıb

**Cari ilin 11 ayında Azərbaycandakı 20 sığorta şirkətinin xətti ilə 1 milyard 108 milyon 234 min manat sığorta haqqı toplanılıb ki, bu da ötən ilin eyni dövrünə nisbətən 26,6 faiz çoxdur.**




Bu barədə Azərbaycan Mərkəzi Bankından məlumat verilib. Bildirlib ki, hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği 497 milyon 466 min manat təşkil edib. Bu isə illik müqayisədə 24,1 faiz çoxdur.

Yanvar–noyabr aylarında sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 44,9 manatı ödəniş edilib. Xatırladaq ki, ötən ilin eyni dövründə bu göstərici 45,8 manat olub.

***XQ***

# Milli standartlaşdırmanın beynəlxalq tələblərə uyğunlaşdırılması texnoloji modernləşmə amilidir

**Dünən Bakıda "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı" üzrə Tədbirlər Planında əksini tapmış tapşırıqların icrasının təmin edilməsi ilə bağlı işçi qrupun ilk iclası keçirilib. İclasda İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələri və tabeliyindəki qurumların, Dövlət Proqramının Tədbirlər Planında nəzərdə tutulmuş tapşırıqların icraçısı olan digər dövlət orqanlarının nümayəndələri iştirak ediblər.**

İclas zamanı ölkəmizdə texniki tənzimləmə sisteminin qurulması istiqamətində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin həyata keçirdiyi tədbirlər, aidiyyəti dövlət qurumları tərəfindən milli texniki reqlamentlərin və istinad standartlarının hazırlanması ilə bağlı mövcud vəziyyət və gözləntilər ətrafında geniş müzakirələr aparılıb. Tədbirdə, həmçinin texniki tənzimləmənin şamil olunduğu malların təhlükəsizlik parametrləri üzrə sınaqların aparılmasını təmin edən laboratoriyaların müəyyən edilməsi, diaqnostik qiymətləndirmələrin aparılması və nəticələrinə dair təkliflərin aidiyyəti üzrə təqdim olunması istiqamətində görülmüş işlər vurğulanıb.

Qeyd olunub ki, texniki tənzimləmənin şamil olunduğu malların idxalından əvvəl onların milli texniki reqlamentə uyğunluğunun qiymətləndirilməsi məqsədilə mexanizmin yaradılması və bu istiqamətdə aidiyyəti dövlət orqanları ilə qarşılıqlı fəaliyyətin tənzimlənməsi üçün bir sıra qabaqcıl ölkələrin tələbləri təhlil edilib. Eyni zamanda ölkəmizdə beynəlxalq tələblərə uyğun texniki tənzimləmə sisteminin yaradılmasının xarici ticarətdə texniki maneələrin aradan qaldırılmasına, ölkənin ixrac potensialının artırılmasına, istehlak bazarlarının təhlükəli mallardan qorunmasına və sağlam rəqabət mühitinin qurulmasına xidmət edəcəyi diqqətə çatdırılıb. Bununla yanaşı, texniki tənzimləmə və standartlaşdırma sahəsində yüksək texnologiyalar və innovativ həllərdən istifadə ilə şəffaflıq və operativliyin təmin edilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Sonda Tədbirlər Planında nəzərdə tutulan konkret tapşırıqların icrasının növbəti mərhələsinə dair işçi qrupun iş planının hazırlanması qərara alınıb.

Qeyd edək ki, insan sağlamlığının qorunmasında təhlükəsizlik normalarının daha da təkmilləşdirilməsi, təbii ehtiyatlardan və enerji resurslarından səmərəli istifadənin təmin edilməsi və iqtisadiyyatın, eləcə də keyfiyyət infrastrukturunun inkişafında və tənzimlənməsində standartlaşdırma sahəsi mühüm əhəmiyyət daşıyır. Dünyada baş verən inteqrasiyanın sürətlənməsi ilə texniki sahələrdə dövlətlərarası münasibətləri daha səmərəli qurmaq məqsədilə 1926-cı ildə ISO kimi tanınan Milli Standartlaşdırma Assosiasiyalarının Beynəlxalq Federasiyası yaradılıb. İSO 162 milli standartlaşdırma orqanının üzv olduğu müstəqil və beynəlxalq qeyri-hökumət təşkilatıdır.

Qurumun məqsədi üzvlərin iştirakı ilə könüllü qoşulma və ümumi razılıq




əsasında innovativ xarakterli, qlobal problemlərin həllində istifadə olunacaq beynəlxalq standartlar ortaya çıxarmaqdır. Beynəlxalq standartların yaradılmasının əsas əhəmiyyəti isə qlobal ticarətin qarşısında maneəyə çevrilən və müəyyən ərazilər üzrə ticarətdə inhisarlaşma yaradan uyğunsuz standartları aradan qaldırmaqdan ibarətdir. Yeri gəlmişkən, 1970-ci ildən etibarən standartlaşdırmanın dünya iqtisadiyyatındakı vacib rolu nəzərə alınaraq hər il oktyabr ayının 14-ü Ümumdünya Standartlar Günü kimi qeyd olunur.

Son illər ölkəmizdə iqtisadiyyatın bütün sahələrində müşahidə edilən inkişaf meyilləri, o cümlədən biznes mühitində olan dəyişikliklər məhsul və xidmətlər sahəsində standartlaşdırma səylərinin artırılmasını və müasir tələblərə cavab verməsini şərtləndirir. Hazırda əhalinin müasir tələb və standartlara cavab verən məhsul və xidmətlərlə təmin edilməsi ölkəmizin iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biridir.

Respublikamızda istehsal olunan qeyri-neft məhsullarının beynəlxalq ticarətdə sərbəst hərəkətinin təmin edilməsi və onların rəqabətqabiliyyətliliyinin artırılması üçün həyata keçirilən tədbirlər çərçivəsində standartlaşdırmanın hüquqi bazasının müasir tələblərə uyğun olması zəruri amillərdən biridir. Məhz buna görə də standartlaşdırma sahəsi ölkəmizdə də getdikcə daha çox aktuallıq kəsb edir.

Bu sahədə qanunvericiliyin yaradılması məqsədilə 1996-cı il aprelin 16-da "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Prezident İlham Əliyevin 10 fevral 2017-ci il tarixli Fərmanına əsasən Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) publik hüquqi şəxs təsis edilib. Ölkədə standartların hazırlanması, tətbiqi, bu sahədə beynəlxalq təşkilatlarda təmsilçilik məhz adıçəkilən quruma həvalə olunub. Bundan əlavə, dövlət başçısının 23 yanvar 2023-cü il tarixli sərəncamı ilə "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı" təsdiq olunub.

Yeri gəlmişkən, ölkəmizin milli standartlaşdırma qurumu kimi fəaliyyət göstərən AZSTAND 2017-ci ilin dekabrından İSO-nun tamhüquqlu üzvüdür. Qurum hazırda Beynəlxalq Standartlaşdırma Təşkilatının 32 texniki komitəsində uğurla təmsil olunur. AZSTAND-ın baş direktoru İlham Bayramovun bildirdiyinə görə, bu il qurum tərəfindən keçirilən idarəetmə sistemləri standartları üzrə 9 təlimə 267 iştirakçı qatılıb. İdarəetmə sistemləri beynəlxalq standartlar əsasında sertifikatlaşan müəssisələrin sayı isə 42-dir.

Göründüyü kimi, ötən müddətdə Azərbaycanda bir sıra normativ aktların, xüsusən də, qaydaların qəbul edilməsi ISO standartlarının tətbiqində və ölkəmizdə standartlaşdırma qaydalarının möhkəmlənməsində böyük irəliləyişə səbəb olub. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda ölkədəki böyük şirkətlər işlərini məhz ISO standartları üzərində qurmağa çalışırlar. Bununla yanaşı, dövlət tərəfindən aparılan zəruri yoxlamalar zamanı da məhz bu amil əsas götürülür.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# İlin ən yaxşıları mükafatlandırıldı







**Gənclər və İdman Nazirliyi ilin idman yekunları ilə bağlı dekabrın 26-da qala mərasimi təşkil edib.**

Tədbirə dövlət və hökumət rəsmiləri, federasiyaların rəhbərləri, titullu idmançılar və media nümayəndələri qatılıblar. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva da mərasimdə iştirak ediblər.

Gənclər və idman naziri Fərid Qayıbov 2023-cü ilin Azərbaycan üçün bir sıra vacib hadisələrlə yadda qaldığını bildirib. Bu il ölkəmizin suverenliyinin tam təmin olunduğunu vurğulayan nazir Azərbaycan Kubokunun 1/8 final mərhələsində Xankəndidə “Qarabağ” və MOİK komandaları arasında keçirilmiş oyunu ən uğurlu idman tədbiri adlandırıb. Azərbaycanın bu il də nüfuzlu yarışlara ev sahibliyi etdiyini söyləyən Fərid Qayıbov idmançıların beynəlxalq turnirlərdən çoxlu medallarla qayıtdıqlarını və doqquz Olimpiya lisenziyası qazanıldığını diqqətə çatdırıb. Bu münasibətlə idman ictimaiyyətini təbrik edən nazir qarşıdakı Olimpiya ilində bütün idmançılara uğurlar arzulayıb.

Ümummilli lider Heydər Əliyevlə bağlı videoçarxın nümayiş olunmasından sonra 19 nominasiya üzrə qaliblərin adları açıqlanıb.

**İlin ən yaxşı qadın idmançısı**

1. Zöhrə Ağamirova (bədii gimnast)
2. Gövhər Beydullayeva (şahmat)
3. İrina Zaretska (karate)

**İlin ən yaxşı kişi idmançısı**

1. Hidayət Heydərov (cüdo)
2. Mixail Malkin (idman gimnastikası)
3. Həsrət Cəfərov (yunan-Roma güləşi)

**İlin ən yaxşı qadın komandası**

1. Bədii gimnastika üzrə milli komanda
2. Şahmat üzrə yığma
3. "Neftçi" basketbol klubu

**İlin ən yaxşı kişi komandası**

1. "Qarabağ" futbol klubu
2. Yunan-Roma güləşi üzrə yığma
3. Tamblinq üzrə milli komanda

**İlin ən yaxşı məşqçisi**

1. Qurban Qurbanov ("Qarabağ")
2. Siyana Vasileva (bədii gimnastika)
3. Rüstəm Alimli (cüdo)

**İlin ən yaxşı hakimi**

1. Nazim Umbayev (cüdo)
2. Sədi Quliyev (güləş)
3. Asif Şirəliyev (güləş)

**İlin ən yaxşı tibbi personalı**

1. Ramin Vəliyev (cüdo)
2. Zaur Abdullayev (boks)
3. Milli İdman Tibb və Reabilitasiya İnstitutu

**İlin ən yaxşı idman federasiyası**

1. Azərbaycan Gimnastika Federasiyası
2. Azərbaycan Cüdo Federasiyası
3. Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası

**İlin ən yaxşı idman klubu**

1. “Ocaq Sport” gimnastika klubu
2. "Sabah" basketbol klubu
3. "Qarabağ" futbol klubu

**İlin ən yaxşı Olimpiya İdman Kompleksi**

1. Quba Olimpiya İdman Kompleksi
2. Şəki Olimpiya İdman Kompleksi
3. Sumqayıt Olimpiya İdman Kompleksi

**İlin ən yaxşı idman qurğusu**

1. Kür Olimpiya Tədris-İdman Mərkəzi
2. Milli Gimnastika Arenası
3. Bakı Su İdman Sarayı

**İlin ən yaxşı Uşaq-Gənclər İdman Məktəbi**

1. Şuşa Uşaq-Gənclər İdman Məktəbi
2. "Ulduz" Futbol Akademiyası
3. Su idman növləri üzrə yüksək idman ustalığı məktəbi

**İlin ədalətli oyun (fair-play) mükafatçısı**

1. Qurban Qurbanov ("Qarabağ" futbol klubu)
2. Azərbaycan Badminton Federasiyası
2. Fariz Hüseynov (cüdo)

**İlin ən yaxşı idman tədbiri**

1. Atıcılıq üzrə dünya çempionatı
2. "Prezident Kuboku 2023" kanoe və avarçəkmə üzrə beynəlxalq reqata
3. Taekvondo üzrə dünya çempionatı

**İlin idman kəşfi**

1. Heydər Əliyev adına İdman Konsert Kompleksinin buz meydançası
2. Xədicə Qədeşova (cüdo)
3. Nicat Abbasov (şahmat)

**İlin ən fəal idman jurnalisti**

1. Zəki Feyzullayev (İdman.biz)
2. Gəray Qiyasov (Real TV)
3. Kənan Hakimov (İctimai Televiziya)

**İlin ən yaxşı idman fotoqrafı**

1. Dilavər Nəcəfov (Gənclər və İdman Nazirliyi)
2. Rüfət Abdullayev (İdman.biz)
3. Zaur Mustafayev (Trend.az)

**İlin ən yaxşı idman filmi**

1. "Stadionlar səssiz olanda"
2. "Qızlara ağ yaraşır!"
3. "Mübariz"

**İlin ən yaxşı idman media qurumu**

1. "CBC Sport"
2. İdman TV
3. İdman.biz

**Sonda ilin ən yaxşı 10 idmançısının adları elan olunub:**

1. Zöhrə Ağamirova (bədii gimnast)
2. Bədii gimnastika üzrə qrup komandası
3. Zelim Kotsoyev (cüdo)
4. Nikita Simonov (idman gimnastikası)
5. Stend atıcılığı (qarışıq komanda)
6. Hidayət Heydərov (cüdo)
7. Gültac Məmmədəliyeva (cüdo)
8. Leyla Əliyeva (cüdo)
9. Yaşar Nəcəfov (cüdo)
10. Ruslan Lunyov (güllə atıcılığı).

Ramiz Qusarçaylı – 65

# Çağdaş poeziyamızın söz zərgəri



**Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Quba bölməsinin sədri, şair Ramiz Qusarçaylının 65 illik yubileyi qeyd olunub.**

O, Baş Qafqaz silsiləsinin ətəyində, Qubanın Çartəpə kəndində dünyaya gəlib. Çartəpə – “çahar təpə”, yəni “dörd təpə” mənasındadır. Əminik ki, əgər Ramiz coğrafiya müəllimi olsaydı, mütləq bu toponimikanı ətraflı araşdıracaqdı. Amma o, şair oldu və ilkin olaraq “dörd təpə”dən üzübelə vurğunu olduğu Azərbaycan təbiətinə aid 4 misralıq şeirlər yazaraq doğma yurdun poetik lövhələrini yaratdı.

Ramiz 1975-ci ildə “Azərbaycan gəncləri” qəzetində dərc olunan “Bağban” şeiri ilə ədəbiyyata gəlib. Söz bağında səpdiyi saf duyğu toxumları misra-misra böyüyərək, şirin bar-bəhər verib. Əsərlərinin biri əbəs yerə “Almalı kitab” adlanmır ki! Bu gün Ramiz Qusarçaylı milli poeziyamızın görkəmli nümayəndəsi olmaqla bərabər, Altaydan Dunaya qədər bütün Türk dünyasında tanınan və sevilən bir şairdir. Hərdən elə bilirəm ki, Ramizin bircə “Gedəsən dünyanın axırınacan...” adlı yeni kitabını götürüb xəritəsiz-kompassız, özü də azmadan rahatca dünya səyahətinə çıxmaq olar. Çünki şair fəhmi ilə o, yerin altına da, üstünə də bələddir.

Yerin altı dedim və xatırladım ki, gənc yaşlarında Donbasda yerin altındakı daş kömür mədənlərində işləməsi də olub Ramizin. Elə ilk kitabının da adını “Çörəyim daşdan çıxır” qoymuşdu. Əslində, onun könülləri təsirləndirən sözləri də bir növ daşdan çıxıb yonulur, cilalanır.

Şimal bölgəsində çağdaş ədəbi-mədəni mühitin pərvərişi onun adı ilə bağlıdır. Xalq şairi Osman Sarıvəlli Ramizə uğurlu yol diləyərək ona “Qusarçaylı” təxəllüsünü götürməyi təklif edəndə gənc şairin cəmi 17 yaşı vardı.

1993-cü ildə Qubada bölgə yazarlarını özündə birləşdirən “Ay işığı” ədəbi məclisini Ramiz Qusarçaylı yaradıb. 1994-cü ildə “Ay işığı” ocağında Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsi qurulub. O, uzun müddətdir ki, bölməyə bacarıqla rəhbərlik edir. Dərbəndin ədəbi qüvvələri ilə də sıx əlaqələr qurub

Məclisinn aparıcısı – AYB-nin katibi Elçin Hüseynbəyli şairin poetik dünyasına qısaca səfər edərək, onun yaradıcılıq məziyyətlərindən danışdı. AYB sədrinin müavini Rəşad Məcid, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Qəzənfəroğlu, ADPU-nun prorektoru, professor Mahirə Hüseynova, bədii qiraət ustası, Əməkdar artist Ağalar Bayramov və başqaları yubilyara ən xoş arzularını bildirdilər. Onun “Vətən” poeması, “Azərbaycan bayrağı” şeiri və dillər əzbəri olan digər poetik nümunələri yüksək dəyərləndirildi. Şairin şeirlərinin qardaş ölkə və topluluqların türkcəsinə, Ukrayna, rus, ingilis, fars dillərinə çevrilərək yayıldığı, yaradıcılığı haqqında 700-dən çox məqalə, şeir, esse, kurs və diplom işi, dissertasiyalar yazıldığı diqqətə çatdırıldı.

Qeyd edək ki, Ramiz Qusarçaylı İstanbulda keçirilən Beynəlxalq Ədəbiyyat Festivalında Türkiyə Cümhuriyyətinin “Ziya Paşa Büyük Ödülü”nə, Bakıda keçirilən II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında “Nizami”, Mərkəzi Asiya Yazıçılar və Tarixçilər İttifaqının və “Əmir Teymur” Beynəlxalq Xeyriyyə Fondunun “Turan Birliyi”, “Aşıq Ələsgər” İctimai Birliyinin “Aşıq Ələsgər-200” medallarına və digır mükafatlara layiq görülüb.

Məşhur şeirində Azərbaycan bayrağına üz tutaraq “Cəngidə cövlan yerim, cövlanda can yerimsən”, – deyən şairə yeni poetik görüşlər diləyi ilə:

***Əli NƏCƏFXANLI***
***XQ***

Səfurə İbrahimova – 85

# “Novruz”un ilk “Bahar qız”ı

**1937-ci ildə sovet imperializminin malını-mülkünü əlindən alıb ucqarlara sürgün etdiyi ailələrin sırasında Ağabala kişinin də külfəti var idi. Səfurə İbrahimova 1938-ci ilin dekabrın 27-də sürgündə dünyaya gəlib. Ailədə 7 uşaq olublar. Sürgün həyatı başa çatdıqdan sonra Bakıya qayıtsalar da, güzəranları düzəlməyib. Yer, iş tapana qədər əziyyətlə yaşayıblar.**



Orta məktəbi bitirəndən sonra sənədlərini Tibb İnstitutuna verən Səfurə son imtahandan kəsilib. Gələcək aktrisa “Stalinneft”də fəhlə işləyə-işləyə oxuyub, imtahanlara hazırlaşıb. Bir dəfə təsadüfən, rəfiqəsinə qoşulub Adil İsgəndərovun aktyorluq kursuna gedən Səfurənin həyatı bununla da dəyişib. Uzun müddət dərnəyə gedib-gəlib Adil İsgəndərov ona aktyorluğun sirlərini öyrədib. 1960-cı ildə qəbul olunduğu İncəsənət İnstitutunda isə Rza Təhmasibin kursuna düşüb. İki ustad sənətkarın yetirməsi olmaq Səfurə İbrahimovanın həyatında işıq seli olub.

Rza Təhmasib elə 1-ci kursdan tələbəsini Akademik Dram Teatrında qoyduğu tamaşada rola dəvət edir. İslam Səfərlinin “Ana ürəyi” dramında Xatirə rolu onun sənətə ilk vəsiqəsi olub. Ardınca “Sevil” opera-filmində Dilbər roluna çəkilib. Beləcə Səfurə İbrahimova teatrın müəyyən bir dövrünün əsas aktrisası olur, saysız obrazlar yaradır. 2005-ci ilə qədər bu teatrda çalışıb. Sonuncu rolu “Köhnə ev”də Mələk olub.

1967-ci ildə Bakıda Şıxəli Qurbanovun keçirdiyi ilk Novruz şənliyində Bahar qızı olmuşdu Səfurə İbrahimova. Həmin vaxtlar onun səhnədə parlayan dövrü idi. Zəmanənin insanları üçün o, bütün rollarına rəğmən, Bahar qızı idi.

2002-ci ildə Xalq artisti fəxri adlarına layiq görülüb. “İblis” tamaşasındakı Rəna roluna görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatına layiq görülüb. Kinoya isə hələ orta məktəbdə oxuyanda çəkilib. Məktəbdən qız axtaranda onu seçiblər. Zeynəb Kazımovanın “Həyat öyrədir” filmində Leyla rolunda oynayıb. Cüzi qonorara sevinən anası nə bilsin ki, qızı bu yolu seçəcək. Peşəkar aktrisa kimi tanınmağı isə 1965-ci ildə “Arşın mal alan”dakı Telli rolu ilə oldu.

“Arşın mal alan” filmində yaratdığı Telli rolu aktrisanın koloritli obrazlarındadndır. “Alma almaya bənzər”də Mədinə, “Qatır Məmməd”də Həbibə, “Dərviş Parisi partladır”da Gülpəri, “Qaynana”da Sədaqət, “Tütək səsi”ndə İsmət fərqli obrazlardır. Hər zaman, böyük-kiçiyinə baxmadan ona həvalə olunan obrazın öhdəsindən məharətlə gəlib. “Sevil”də Dilbər olan Səfurə İbrahimova “Şir evdən getdi” filmində tülkü obrazını da məharətlə yaradıb. İlyas Əfəndiyevin “Sən həmişə mənimləsən” teletamaşasındakı ana son illər oynadığı rollardan idi.

Aktrisanın teatr və kino sahəsində əməyi yüksək qiymətləndirilib. Prezidentin fərdi təqaüdünə layiq görülüb. Xalq artisti Səfurə İbrahimova 2020-ci il dekabrın 21-də 81 yaşının tamam olmasına 6 gün qalmış dünyasını dəyişib. Səfurə xanım bir çox obrazlara həyat verməsi ilə sənətdə ölməzlik qazanıb.

***R.QURBANLI***
***XQ***

“Azərbaycan teatrı – 150

# 3 əsrdən keçən milli səhnəmiz

**Mədəniyyət Nazirliyi, Teatr Xadimləri İttifaqı və Cəfər Cabbarlı adına Dövlət Teatr Muzeyinin təşkilatçılığı ilə "Azərbaycan teatrı-150: 3 əsrdən keçən teatr" mövzusunda elmi-praktik konfrans keçirilib.**



Əvvəlcə Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə keçirilən konfransda Azərbaycan teatrının keçdiyi tarixi yoldan bəhs edilib, perspektivlər və mövcud problemlər müzakirə olunub.

Tədbirdə Əməkdar incəsənət xadimi, professor İlham Rəhimlinin “Azərbaycan teatrı-150 - 3 əsrdən keçən teatr”, Əməkdar incəsənət xadimi, professor Məryəm Əlizadənin “Azərbaycan teatrı: uzaq proqnoz”, Əməkdar incəsənət xadimi, professor Əli Əmirlinin “Yeni dram,



yeni dramaturgiya”, Əməkdar incəsənət xadimi, professor Aydın Talıbzadənin “Azərbaycan teatrı: külək və su”, sənətşünaslıq üzrə fəlsəfə doktoru Vidadi Qafarovun “Azərbaycan teatrının sosioloji mənzərəsi: problemlər, perspektivlər” və sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Cəfərovun “Köhnə teatr və təzə bazar: menecment və marketinq strategiyası” mövzularında məruzələri dinlənilib.

***Q.RAMİLƏ***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Yaxın Şərq: Qəzzanın ağır günləri

**Bu il oktyabrın 7-də HƏMAS yaraqlılarının İsrail ərazisinə 11 istiqamətdə gözlənilməz hücumundan və bu zaman törətdikləri ağır zorakılıqlardan sonra tərəflər arasında silahlı qarşıdurmanın miqyası və intensivliyi, bir neçə günlük atəşkəsi istisna etməklə azalmır, əksinə, artmaqda davam edir.**



Dünya birliyinin israrlı çağırışlarına baxmayaraq, hələlik, müharibəni heç cür durdurmaq mümkün olmur. Dünən İsrail aviasiyası yenidən Qəzza zolağındakı müxtəlif obyektlərə zərbələr endirib. Nəticədə onlarla insan ölüb və yaralanıb. Bir çox binaların dağıldığı barədə məlumatlar yayılıb.

BBC agentliyi yazır ki, artıq bir neçə gündür ki, BMT-nin humanitar qrupunun rəhbəri Cemma Konnell Qəzza zolağındadır. O, vəziyyətlə yerində tanış olduqdan sonra məcburi köçkünlər üçün ciddi sığınacaq çatışmazlığının olduğunu deyib.

C.Konnell həmçinin bildirib ki, Qəzzada hazırda on minlərlə qaçqın evlərini tərk edib və təhlükəsiz sığınacaq tapa bilmir. Onun sözlərinə görə, Qəzza zolağının cənubundakı Rəfah şəhərində nəqliyyat sıxlığı səbəbindən çoxlu sayda köçkün ailəsi sığınacaqsız qalıb. "Qəzzada yaşananlar əsl fəlakətdir", – deyə BMT təmsilçisi vurğulayıb.

Dünən Fələstin Səhiyyə Nazirliyi öz "Teleqram" kanalında yayıb ki, HƏMAS-İsrail qarşıdurması başlanan andan bugünədək Qəzza zolağında ölənlərin sayı 20 min 674 nəfərə çatıb. Məlumata görə, daha 54 min 536 nəfər xəsarət alıb. İsrailin itkiləri isə 1400 nəfərə yaxındır.

Ara-sıra münaqişə bölgəsindən ümidverici xəbərlər də yayılır. Belə ki, dünən İsrail Müdafiə Qüvvələri Qəzza zolağının mərkəzində yerləşən Deyr-əl-Balah şəhərinin iki rayonunda döyüşlərin dayandırıldığını elan edib.

Bu barədə İsrail Müdafiə Qüvvələrinin rəsmi nümayəndəsi Avixay Edri "X" hesabında məlumat verib. Bildirilib ki, Deyr-əl-Balah şəhərinin El-Bruk və Yaffo rayonlarında döyüş əməliyyatları humanitar məqsədlə dörd saatlıq dayandırılacaq.

Edrinin sözlərinə görə, İsrail Müdafiə Qüvvələrinin Xan-Yunis bölgəsində döyüş əməliyyatları dinc sakinlərin Salah-əd-Din yolu ilə şəhərin şimal və şərq istiqamətlərində hərəkətinə mane olur.

İsrail Müdafiə Qüvvələrinin mülki əhalinin Xan-Yunis rayonu qərbində yerləşən dolama marşrutla təhlükəsiz hərəkətini təmin edəcəyi qeyd olunub.

Misir rəsmiləri Qəzza zolağında vəziyyətin nizamlanması ilə bağlı təkliflərini İsrail hökumətinə təqdim ediblər. Lakin rəsmi Qahirənin analoji sənədi Fələstin Muxtariyyətinə hələ də təqdim etmədiyi bəlli olub.

Fələstinli rəsmi "Ash-Sharq" nəşrinə açıqlamasında bildirib ki, ölkə rəhbərliyi Qəzza zolağında müharibəyə son qoymağa yönəlmiş istənilən ərəb ölkəsinin və beynəlxalq qurumların təkliflərini alqışlayır.

Daha əvvəl məlumat verilmişdi ki, Misir HƏMAS yaraqlıları saxlanılan çox sayda girovun azad edilməsi müqalibində Qəzzada atəşkəsin nəzərdə tutulduğu nizamlama variantını təklif edib.

Bu arada İsrailin Baş naziri Binyamin Netanyahu Qəzza zolağında münaqişəyə son qoymaq üçün 3 şərtini açıqlayıb. Bu, HƏMAS-ın məhv edilməsi, anklavın silahsızlaşdırılması və cəmiyyətin radikallaşdırılmasının qarşısının alınmasıdır. Bu barədə Baş nazir "The Wall Street Journal"da nəşr olunan məqaləsində yazıb.

Netanyahu bildirib ki, anklavı silahsızlaşdırmaq üçün Qəzza zolağı perimetri boyunca müvəqqəti təhlükəsizlik zonası və Misirlə sərhəddə yoxlama–keçid mexanizmi yaratmaq lazımdır. Onun fikrincə, bu, Qəzzaya silah qaçaqmalçılığının qarşısını alacaq.

Bu arada İsrail Baş nazirinin həyat yoldaşı Sara Roma Papası Fransiskdən Qəzza sektorunda saxlanılan girovların azad edilməsinə kömək göstərməsini istəyib.

İsrail Baş nazirinin ofisinin məlumatına görə, Sara Netanyahu Papadan heç bir şərt olmadan bütün girovların dərhal azad olunması üçün öz nüfuzundan istifadə etməsini, həmçinin onlara dərman çatdırılması üçün Beynəlxalq Qırmızı Xaç Komitəsinə çağırış etməsini xahiş edib. Məktubda HƏMAS hərəkatının əlində əksəriyyəti yaralı və ya xəstə olan 129 girovun olduğu deyilir.

HƏMAS-İsrail müharibəsinin nə vaxt bitəcəyi bəlli deyil. Beynəlxalq qurumlar bu ağır silahlı qarşıdurmanın qarşısını almaq gücündə deyillər. Böyük dövlətlər isə bu istiqamətdə hələlik ciddi səylər ortaya qoymurlar. Arada əziyyət çəkənlər isə ağır zorakılıqlarla üzləşən sadə insanlardır.

***M.HACIXANLI***
***XQ***

**(əvvəli 1-ci səhifədə)**

# Fransız "persona-non-qrata"lar, komissar Jyuv və Emmanuel Makron

Güman edirik ki, bu cür qalmaqallı hadisədən sonra Fransanın ölkəmizdəki səfirliyinin iki əməkdaşının Azərbaycanda "persona-non-qrata" elan edilməsi düşünməyə vadar edir. Həmin şəxslərin də sözügedən agentura şəbəkəsi ilə bağlılığının olma ehtimalı böyükdür.

Əslində, ali diplomatik missiyanın təmsilçilərinin bu cür aqibətlə üzləşmələri elə sözügedən şəbəkənin ifşası qədər rüsvayçılıq doğuran haldır. Hər iki fakt Fransa adına rüsvayçılıqla yanaşı, həm də böyük utancdır. Çox güman, qarşıdakı müddətdə belə utanc səhnələrinin sayı daha da artacaq. Necə deyərlər, artıq kələfin ucu açılıb.



Əslində, utanc və rüsvayçılıq mənzərəsinin ilk siqnalları rezidentura şəbəkəsinin ifşası ilə bağlı diqqətə çatdırdığımız məlumatda da öz əksini tapmışdı. Bildirilmişdi ki, Makron ölkənin Müdafiə Nazirliyinin (DGSE) Xarici Təhlükəsizlik Baş İdarəsinin direktoru Bernard Emyeri vəzifəsindən azad edib. O Emyeri ki, bu ilin aprelində Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşmək üçün Minskə səfər etmişdi. Onun istefaya göndərilməsi isə Afrikadakı və Cənubi Qafqazdakı kəşfiyyatın uğursuzluğundan qaynaqlanmaqdadır.

Qeyd edək ki, Fransa Prezidenti hələ 2023-cü ilin avqustunda ölkənin xarici kəşfiyyatının rəhbərinə qarşı narazılığını ifadə etmişdi. Səbəb B.Emyerin fəaliyyətinin Parisin Afrika və Şərqi Avropadakı mövqelərinə zərbə vurması olmuşdu.

Bəli, uğursuzluqlar yeni uğursuzluqlar gətirir. Səfirlik əməkdaşlarının Azərbaycandan çıxarılmaları qərarı isə uğursuzluğun tragikomik mənzərəyə daxil olduğunun sübutudur. Deməli, Fransanın siyasət meydanında üzləşdiyi rüsvayçı durum dövlət hakimiyyətinin sütunu sayılan kəşfiyyat xidmətinin iflası ilə özünün aqoniya mərhələsinə qədəm qoymaqdadır. Bakı diplomatik müstəvidə Parisi zərərsizləşdirdiyi kimi, ölkəmizin hüquq-mühafizə orqanlarının timsalında DTX da fransız xəfiyyələrini, əslində isə, komissar Jyuvun ardıcıllarını faş edir. Yəni, ölkəmiz hər cəbhədə qatı ermənipərəst mövqeyi ilə seçilən, BMT-də Azərbaycana qarşı qətnamə oyunbazlığı həyata keçirən Fransaya yerini göstərməkdədir.

Sonda bir daha "Fantomas" və komissar Jyuv obrazının timsalında Fransa kinemotoqrafiyasından söz açaq. Son zamanlar çəkilmiş fransız filmləri əvvəlki populyarlığı ilə seçilməsələr də, sənət nümunəsi baxımından dramatizmi qoruya bilirlər. Görünür, Makron ya bu sahəyə "əl gəzdirməyə" macal tapmayıb, ya da siyasətlə əlaqədar təsəvvürləri kinolardakı kimidir. Hər halda, onun dövlət idarəçiliyinə yanaşmasının da mahiyyəti filmoqrafiyadan o tərəfə keçməyəcək qədər qeyri-real və bəsitdir. Amma bu, sevindiricidir. Çünki Bakıdan qovulan səfirlik əməkdaşları işsiz qalmayacaqlar. Makron onları Fransa kinostudiyalarından birinə götüzdürəcək. Yerləri elə oradır. Amma kinonu cizgi filminə çevirməmək şərtilə.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ukrayna ordusu geri çəkilir

**Ukrayna Silahlı Qüvvələri ağır günlərini yaşayır. Hakimiyyət orqanları ölkədə pilotsuz uçuş aparatlarının istehsalını təşkil etmək üçün yol tapmasa, geri çəkilməyə məcbur olacaq.**



Bunu Ukrayna Aerokəşfiyyatına Dəstək Mərkəzinin rəhbəri Mariya Berlinskaya "Ukrayinska Pravda" nəşrinin "YouTube" kanalında bildirib. O deyib: "Bizim texnikamızın böyük payı Rusiyanın hücum pilotsuz təyyarələri tərəfindən məhv edilir. İndi bir neçə addım irəlini düşünməyə başlamasaq, sadəcə olaraq geri çəkilməyə məcbur olacağıq, bu, faktdır".

Onun sözlərinə görə, döyüş meydanında "oyun qaydalarını dəyişən" dronlardır, lakin Ukrayna hakimiyyəti buna texnoloji cəhətdən hazır deyil.

Qeyd edk ki, Ukrayna Prezidenti Volodimir Zelenski dekabrın 19-da keçirdiyi mətbuat konfransında 2024-cü ildə ölkədə bir milyon pilotsuz aparat istehsal etməyi planlaşdırdığını açıqlayıb. Berlinskaya bununla bağlı qeyd edib ki, söhbət yalnız "ən sadə dronlarından" gedir.

***P.ƏFƏNDİ***
***XQ***

# Rusiyada prezidentliyə namizədlərin sayı 30-a çatıb

**Rusiyada 2024-cü ilin martında keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürmək istəyənlərin sayı 30 nəfərə yüksəlib. Bunu TASS-a müsahibəsində Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Ella Pamfilova deyib: "Təbii ki, kampaniya rəqabətli olacaq, çünki birdən çox namizəd var. Hər halda, indi namizəd olmaq üçün artıq 30-dan çox ərizəçi var".**

Prezidentliyə namizədlər artıq görüşlər, qurultaylar və tədbirlər keçirirlər. Eyni zamanda, MSK-nın rəhbərinin sözlərinə görə, seçkilərdə rəqabətin dərəcəsi namizədlərin sayından deyil, onların keyfiyyətindən çox asılıdır. Rusiya tarixində ilk dəfə olaraq 2024-cü ildə prezident seçkiləri üç gün ərzində – martın 15-dən 17-dək keçiriləcək. MSK hərbi vəziyyət şəraitində olan yeni rayonlarda səsverməyə icazə verib.

***P.ƏFƏNDİ***
***XQ***

COVİD: Yeni dalğa gözlənilir

# Xaricə gedənlər, ehtiyatlı olun!



**2023-cü il başa çatır, qarşıdan bizi bir həftəlik bayram tətili gözləyir. Sevimli bayram günlərində tətili Bakıda, yaxınlarını ətrafında keçirməyi planlaşdıranlar da var, Yeni il atəşfəşanlığını uzaq ölkələrdə, hətta okeanın o tayında da izləmək istəyənlər də. Əlbəttə, bütün bunlar təbii və anlaşılan istəklərdir. Amma hazırda Yeni ili uzaq ölkələrdə qarşılaşamaq nə qədər təhlükəsizdir?**

Əlbəttə, söhbət müharibənin tüğyan etdiyi ölkərə yollanmaqdan getmir. Dünyanı hazırda təkcə silahlı münaqişələr yox, həm də müxtəlif yoluxucu xəstəliklər də təhdid edir. Hər kəs 2020-ci ildə COVİD-19 pandemiyasının təsirini hələ də xatırlayır. Həmin pandemiya dünyada hər kəsin həyatına güclü təsir göstərmişdi. İnfeksiya nisbətlərini azaltmaq üçün görülməmiş tədbirlərə məcburi karantin, komendant saatı və hərəkət məhdudiyyətləri daxil edilmişdi. Dünyanı lərzəyə salan epidemiaydan üç il ötür. Amma təhlükə yenə də qalır. Son günlər yayılan məlumatlarda bildirilir ki, dünya yeni virus epidemiyası ilə qarşılaşa bilər. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bildirir ki, dünyada COVID-19 virusunun "JN.1" ştammı yayılır və bu ştamm diqqətə alınması vacib virusdur. Bu virusun daha çox Hindistan, Çin və ABŞ-da aşkar edildiyi vurğulanır.

Bəs virusun yenidən "xortlaması" nə ilə bağlıdır? "Financial Times" (FT) yazır ki, yeni COVID-19 "JN.1" variantının yayılması amerikalıların peyvənd olunmağa maraq göstərməmələridir. Qəzet ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinin (XNQAM) hesablamalarına istinadən qeyd edir ki, "omikron" ştammının alt variantı hazırda ölkədə koronavirus infeksiyası hallarının 44 faizdən çoxunun səbəbidir. ÜST Fransa, ABŞ, Sinqapur, Kanada, Böyük Britaniya və İsveç də daxil olmaqla 41 ölkədə "JN.1" yoluxma hallarını qeydə alıb və təşkilat virusun yayılmasının qış aylarında arta biləcəyini bildirib. FT yazır ki, dekabrın 22-nə olan məlumata görə, ABŞ-da böyüklərin təxminən 18 faizinə yenilənmiş COVID-19 peyvəndi vurulub.

Bununla belə, COVID-19-ə yoluxanların sayında artım müşahidə olunur. Xüsusilə də qrip mövsümündə infeksiyanın yayılmasının artacağı proqnozlaşdırılır. ÜST də dünyada koronavirusa yoluxma hallarının 50 faizdən çox artdığını bildirir. Təşkilatın məlumatına görə, noyabrın 20-dən dekabrın 17-dək 850 mindən çox insan COVID-19-a yoluxub. Razılaşın ki, heç də kiçik rəqəm deyil. Ona görə də, Yeni ili qarşılamaq üçün xarici ölkələrə gedən zaman COVİD-lə ehtiyatlı davranmağı unutmayın.

***S.ELAY***
***XQ***


## BİLDİRİŞ

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən elan olunmuş 2024-cü il üçün Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların əsaslı təmirinin satın alınması üçün keçiriləcək açıq tenderdə "Xalq qəzeti"ndə dərc olunmuş hər iki elanda iddiaçıların tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədlərin təqdim edilməsi 27 dekabr 2023-cü il saat 10.00-a dək qeyd olunmuşdur. Lakin elektron portalda iddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 29 dekabr 2023-cü il saat 10.00-a dək təqdim etməli olduqları qeyd olunduğundan ilkin sənədlər 29 dekabr 2023-cü il saat 10:00-a dək qəbul ediləcəkdir.

## "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

22 yanvar 2024-cü il, saat 11.00-da, Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi 2E nömrəli ünvanda yerləşən Bankın Ofisində (3-cü mərtəbə, iclas zalı) Bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

**I.** 2024-2026-cı illər üzrə "Kapital Bank" ASC-nin strateji planları, strateji baxış və missiya bəyanatı haqqında məlumat.

Məruzəçi: Əli İbrahimov

**II.** Bankın Müşahidə Şurasının əsasnaməsinin yenilənməsi haqqında.

Məruzəçi: Zaur Məmmədli

**III.** Digər məsələlər.

Məruzəçi: Yaşar Məmmədov

## "Böyükşor Avtonəqliyyət" ASC səhmdarlarının nəzərinə!

"Böyükşor Avtonəqliyyat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 11 fevral 2024-cü il saat 13.00-da keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

**1.** Səhmdar cəmiyyətin 2023-cü il üçün fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2.** Mənfəətin bölüşdürülməsi və dividendlərin hesablanması.

**3.** Təşkilati məsələlər.

Ümumi yığıncaq səhmdar cəmiyyətin yerləşdiyi ünvanda- Bakı şəhəri, Böyükşor şossesi 2062-ci məhəllədə keçiriləcəkdir.

Səhmdarlar onları maraqlandıran məsələlərlə bağlı rəhbərliyə müraciət edə bilərlər.

Səhmdarlardan şəxsiyyət vəsiqəsinin və onların bank hesablarının rekvizitlərinin təqdim edilməsi xahiş olunur.

***Müşahidə Şurası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 284 (30400) 27 dekabr 2023-cü il, çərşənbə


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

### 2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Lider xalqa söykənəndə

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Himnur – xəzli kirpi



***Smitson İnstitutunun Milli Təbiət Tarixi Muzeyinin (ABŞ) alimləri Cənub-Şərqi Asiyada yumşaq tüklü kirpilərin 5 yeni növünü aşkar ediblər.***

Bu kirpi ailəsi Himnur adlanır. Bu kiçik məməlilərin dəriləri tikanlar əvəzinə, yumşaq tüklərlə örtülüb. DNT analizləri nəticəsində onların yeddi müxtəlif gen xəttinə malik olduğu ortaya çıxıb. Bunun üçün 232 fərdin ölçüsü, kəllə sümüyünün forması, dişləri və xəz xüsusiyyətləri araşdırılıb.

Qeyd edək ki, xəzli kirpilər gecə-gündüz aktivdirlər. Böcəklər, onurğasızlar və meyvələrlə qidalanırlar. Ağac kökləri, daşlar və xəzəl arasında yemək axtarır, çuxurlarda yuva qururlar.

***FİDAN***
***XQ***

## İdman xəbərləri

# Yeniyetmə taekvondosu başa çatıb

**Taekvondo üzrə yeniyetmələr arasında ölkə birinciliyinə yekun vurulub. Taekvondoçular yeni qaydalara uyğun boylarının ölçülərinə (148 sm-dən 180 sm-dək) əsasən yarışıblar.**



Oğlanlar arasında Əli Həsənzadə (Xəzər TK, 152 sm), Səid Feyzullayev (Gömrükçü, 156 sm), Sərxan Talıbzadə (Şuşa TK, 176 sm) birinci yeri tutublar.

Qızların yarışında isə Məryəm Cəfərova (Quba-Xaçmaz RGİİ, 152 sm), Ləman Manafova (Alpman TK, 156 sm, Gülnaz Abdullayeva (Cəsur TK, 168 sm) qalib adını qazanıblar.

# Bakıda ilk kiber triatlon yarışı



**Bakıda “CYBERWinD Olympic Series” adlı ilk kiber triatlon yarışı baş tutub.**

“Triterra Baku Triathlon Club” və “Cyber Athletics Azerbaijan”nın birgə təşkilatçılığı ilə keçirilən turnirdə “Triterra”, “Metak”, “Tristar” və “World Class Azerbaijan” klublarının təmsilçiləri olan 17 idmançı iştirak edib. Reqlamentə əsasən atletlər 40 kilometrə bərabər virtual məsafəni qət ediblər.

Finişə birinci Teymur Fərəcov (“Triterra” klubu) çatıb. Elçin Əliyev (“Tristar”) ikinci, Zaur Arkania (“Triterra”) üçüncü yerlərdə qərarlaşıblar.

Kiber triatlon üzrə yarış Azərbaycanda ilk dəfə təşkil olunub. Turnirin gələcəkdə E-İdman Olimpiadasında Azərbaycan təmsilçilərinin müəyyən olunması üçün təsnifat xarakter daşıyacağı gözlənilir.

Qeyd edək ki, yarış Gənclər və İdman Nazirliyi, eləcə də Azərbaycan Triatlon Federasiyasının dəstəyi ilə təşkil olunub.

# “Sabah”ın qış hazırlığı



**“Sabah” futbol komandasının qış hazırlıq planı açıqlanıb.**

Klubdan “XQ”yə bildiriblər ki, komanda yanvarın 4-dən 15-dək Türkiyənin Antalya bölgəsində təlim-məşq toplanışı keçəcək. Paytaxt təmsilçisinin qardaş ölkədə 2 yoxlama oyununda iştirakı planlaşdırılır. Kollektiv “Titanic Deluxe Belek” hotelində məskunlaşacaq. Rəqiblər hələlik bəlli deyil.

***Leyla SABİRQIZI***
***XQ***



# “Azərbaycanda Yeni il” Sankt-Peterburqda

***Rusiyanın Sankt-Peterburq şəhərində yerləşən V.V.Mayakovski adına kitabxanada “Azərbaycanda Yeni il” adlı tədbir keçirilib. Tədbirin təşkilatçısı Sankt-Peterburq Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin müəllimi, türkoloq alim Şahnaz Kamal olub. Tədbirdə Azərbaycan Respublikasının Sankt-Peterburqdakı konsulu Rəhim Rəhimzadə, Azərbaycan diasporunun üzvləri, kitabxananın oxucuları və şəhər sakinləri iştirak ediblər.***

Tələbə və şagirdlərin rəngarəng musiqi nömrələri ilə çıxışları maraqla qarşılanıb.

Proqramda cari il Rusiyada Azərbaycan Milli Mədəni Muxtariyyətinin və Rusiyadakı Azərbaycan Qadınları Birliyinin birgə səyi nəticəsində keçirilən, ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Azərbaycan poeziyasının inciləri” adlı şeir müsabiqəsinin iştirakçıları və qalibləri mükafatlandırılıb. Müsabiqədə Rusiyanın müxtəlif bölgələrindən olan 126 uşaq və gənc iştirak edib.

***XQ***

# Santa Klausun Yeni il səyahəti

***Santa Klaus Milad bayramı münasibətilə dünyanın bütün qitələrini ziyarət edərək 6,7 milyona yaxın hədiyyə paylayıb. Bu barədə Şimali Amerika Aerokosmik Müdafiə Komandanlığı (NORAD) məlumat yayıb.***



Bildirilir ki, Santa Klaus Avropanın əksər ölkələrində olub. O, Rusiya, Avstraliya, Afrika, Şimali və Cənubi Amerikaya da səyahət edib. Santa Klaus hazırda ABŞ-nin qərbində səfərdədir.

Qeyd edək ki, “NORAD Tracks Santa” Şimali Amerika Aerokosmik Müdafiə Komandanlığının himayəsi altında yaradılmış Milad proqramıdır. Şirkət 1955-ci ildən bəri hər il Milad bayramı ərəfəsində dünyanın müxtəlif guşələrindəki uşaqlara hədiyyələr çatdırmaq üçün Santa Klausun səyahətini təşkil edir.

Ənənəyə uyğun olaraq, Santa Klaus dünya səyahətinə dekabrın 24-də Milad ərəfəsində yola düşür.

***S. FİDAN***
***XQ***

## Hava




***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən dekabrın 27-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.***

Mülayim cənub-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək. Gecə 5-9°, gündüz 12-17° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 760 mm civə sütununa enəcək, nisbi rütubət gecə 80-90, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq Mülayim qərb küləyi əsəcək, axşam arabir güclənəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 12-17° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## Sosial şəbəkələrdən seçmələr

# Otellonun ağ əlcəyi...

**Tanınmış nasir-dramaturq, Əməkdar mədəniyyət xadimi Firuz Mustafa “Facebook”da görkəmli aktyor Ələsgər Ələkbərovun Otello rolunda çıxışı ilə bağlı maraqlı paylaşım edib. Orada yazılıb:**



“SSRİ Xalq artisti Ələsgər Ələkbərov Şekspirin “Otello” faciəsində baş rolun mahir ifaçılarından biri olub. Moskvadakı qastrol zamanı böyük aktyor həmin obrazı məharətlə oynayır. Amma birinci pərdədən sonra ona deyirlər ki, “sifətin qrimlənsə də əlinin qrimlənməsi unudulub”. Axı Otello zənci idi və təbii ki, zəncinin üzü kimi, əlinin rəngi də qaraşın olmalıdır.

Aktyor iradla razılaşır. Doğrudan da, onun əlinə qara qrim çəkilməyibmiş. Amma o, təzədən səhnəyə çıxanda hamı görür ki, bu “rəng” məsələsi yenə əvvəlki səhnədə olduğu kimi qalmaqdadır. Yəni Otellonun sifəti kömür kimi qapqara, əlləri isə pambıq kimi dümagdır. Bu, rejissorun və bir çox tamaşaçıların diqqətindən yayınmır.

Amma əsərin finalına yaxın Otello, yəni Ələsgər Ələkbərov nümayişkaranə şəkildə əlindəki ağ əlcəyi çıxarıb kənara atır və əlcəyin içindən çıxan qapqara zənci əlləri görünür. Bu, hamını təəccübləndirir.

Sən demə, böyük aktyor fasilə zamanı əlinə qara qrim çəkdirib, üstündən də ağ əlcək geyinib ki, hər şey daha təbii və inandırıcı alınsın”.

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

## Sağlamlıq

# Mədəni “aldadan” həb

**Yeni həb mədə şirəsinə batırıldıqda aktivləşir və titrəyərək mədənin xəyali genişlənməsini yaradır. Cihazın ölçüləri 31x10 millimetrdir və kiçik mühərrikə və gümüş oksidli akkumulyatora malikdir.**



Massaçusets Texnologiya İnstitutunun mütəxəssisləri ABŞ-ın Harvard Tibb Məktəbinin Brigham və Qadın Xəstəxanasının qastroenteroloqları ilə birlikdə artıq çəkidən xilas olmaq üçün yeni perspektivli vasitə – mədəyə yerləşdirildikdə onun fəaliyyətini modulyasiya edən titrəyici kapsul hazırlayıblar. Həb mədəyə düşdükdə reseptorları daraldır və toxluq hissi yaradır. Bu barədə “Science Advances” jurnalında məqalə dərc olunub.

İdeya ondan ibarətdir ki, bu təhlükəsiz və istifadəsi asan cihaz mədə dartınması illüziyasını yaratmaq üçün mexaniki stimullaşdırma və yeməkdən əvvəl toxluq hiss etməyə kömək edir. Mədə yemək zamanı uzanır, orqanın divarlarında sinir uclarına təsir edir, bu da beyinə insanın doyması barədə siqnallar göndərir.

Həbi daha da təkmilləşdirməyi və onun bədənə təsirini daha ətraflı öyrənməyi planlaşdırırlar. Xüsusilə də kapsulun arıqlamağa kömək etdiyini hələ təsdiqləmək mümkün olmayıb. Həbin effektliyi barədə dəqiq məlumatların iki-üç ildən sonra əldə ediləcəyi vurğulanır.

***Z.HÜSEYNLİ***
***XQ***

*✓ 2021-ci ildə Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci tərəfindən Xəmmədov Əfqan Rəman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Yeni Azərbaycan Partiyası Zaqatala Rayon Təşkilatının sədri

**HABİL QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektor vəzifəsini icra edən Vazeh Əsgərova atası

**ELDƏNİZ ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3425
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00